# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 220 (8536) ŞƏNBƏ, 24 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## İLHAM ƏLİYEV: “Milli Qəhrəman Şükür Həmidovun adı doğulduğu və azadlığı uğrunda həlak olduğu Qubadlıda əbədiləşdiriləcək”



**Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Qəhrəman, Qubadlının azadlığı uğrunda şəhid olmuş Şükür Həmidovun atası Nəriman Həmidovla telefonla danışıb.**

Dövlət başçısı Şükür Həmidovun həlak olması ilə bağlı başsağlığı verib, qeyd edib ki, Şükür Həmidov hələ Aprel döyüşləri zamanı göstərdiyi şücaətə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş və Azərbaycan Prezidenti şəxsən özü ona qəhrəman ulduzunu təqdim etmişdi. Dövlət başçısı qeyd edib ki, Şükür Həmidov bu dəfə Qubadlı rayonunun azadlığı uğrunda döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olmuşdur. Prezident İlham Əliyev Şükürün doğulduğu və azadlığı uğrunda həlak olduğu Qubadlı rayonunda onun adının əbədiləşdiriləcəyini vurğulayıb.

Nəriman Həmidov dövlət başçısına təşəkkürünü bildirərək Azərbaycan xalqının müzəffər Ali Baş Komandan kimi onun ətrafında sıx birləşdiyini və bundan sonra da Azərbaycan Prezidentinə dəstək olacağına əminliyini ifadə edib.

Prezident İlham Əliyev Nəriman Həmidovla görüşünü də xatırlayaraq ona Şükür kimi igid və vətənə sadiq övlad yetişdirdiyinə görə minnətdarlığını bildirib, Həmidovlar ailəsinin bütün yaxınlarına başsağlığı çatdırmağı xahiş edib.

***Prezidentin Mətbuat Xidməti***

## Prezident İlham ƏLİYEV: “Azərbaycan Ordusu Xocavəndin 2, Cəbrayılın 5, Zəngilanın 2 kəndini işğaldan azad edib”

**“Müzəffər Azərbaycan Ordusu Xocavənd rayonunun Dolanlar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad etmişdir”.**

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.

## Prezident İlham ƏLİYEV: “Qubadlı rayonunun 4 kəndi işğaldan azad olunub”

**“Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir”.**

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.




## İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusunun işğaldan azad etdiyi yaşayış məntəqələrinin sayı hər gün artır

**Qədim yurd yerimiz olan Dağlıq Qarabağ azadlığına qovuşmaqdadır. 30 ilə yaxındır Ermənistanın işğalı altında olan rayonlarımız bir-birinin ardınca düşməndən təmizlənir. Artıq bu torpaqlardan onun əsl sahiblərinin səsləri eşidilir. Erməni tapdağından xilas olan ərazilərimizdə müqəddəs Azərbaycan bayrağı dalğalanır.**

### Daha 13 kənd

Sentyabr ayının 27-dən başlanan Vətən müharibəsi Şanlı Ordumuzun işğal altında olan torpaqlarımızı azad etməsi ilə davam edir. Hər gün cəbhədən Azərbaycan əsgərinin qələbə dolu müjdələri gəlir. Ermənistanın 1994-cü ildən bəri möhkəmləndirdiyi, keçilməz hesab etdiyi istehkamlar, ön xətt mövqeləri çoxdan darmadağın edilib. Artıq Qarabağın içərilərində Şuşa, Xankəndi yaxınlığında əsgərlərimizin ayaq səsləri eşidilir.

Prezident İlham Əliyevin oktyabrın 23-də axşama yaxın özünün rəsmi “Twitter” səhifəsində etdiyi paylaşımlar Ordumuzun müzəffər yürüşünün inamla davam etdiyini göstərdi. Ali Baş Komandan bu dəfə Xocavənd rayonunun Dalanar və Bünyadlı, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli, Mirzəhəsənli və Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərinin işğaldan azad olunduğunu bəyan etdi.

### Dövlət sərhədi tam nəzarətə götürüldü

Qeyd edək ki, iki gün əvvəl Zəngilan rayonunun Ağbənd qəsəbəsinin azad olunması ilə həm də Vətən müharibəsinin gedişində növbəti tarixi hadisə baş verdi. *“Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!”* - deyə Prezident İlham Əliyev oktyabrın 22-də özünün “Twitter” səhifəsində bildirdi.

Artıq Ağbənd sərhəd zastavasında Azərbaycan bayrağı dalğalanır. Bu o deməkdir ki, rəşadətli Ordumuz Azərbaycan-İran dövlət sərhədinin indiyə kimi işğalda olan 132 kilometrlik hissəsini tam azad edib.

*Ardı 6-cı səh.*

## Vətən savaşımız pandemiyanı unutdurmamalıdır

**Bir ilə yaxındır ki, yeni növ koronavirus (COVID-19) dünyanın hər yerində həyatı alt-üst edib. Planetin koronavirusla bağlı hazırkı mənzərəsinə nəzər saldıqda görünür ki, aparılan mübarizə tədbirlərinə baxmayaraq, vəziyyət yenə də ürəkaçan deyil, infeksiya ağlasığmaz sürətlə yayılır, hər ötən gün virusa yoluxma sayında yeni rekord müəyyən edilir.**

Ümumdünya Səhiyyə Təşkilatının son hesabatında bildirilib ki, indiyə qədər dünyada ümumilikdə 41 milyondan çox yoluxma, 1 milyondan artıq ölüm hadisəsi qeydə alınıb. Bildirilir ki, gündəlik ən çox yoluxma Avropada müşahidə edilir, Şimali və Cənubi Amerika ikinci, Cənub-Şərqi Asiya isə üçüncü yerdə durur.

Ümumilikdə isə ən çox yoluxma 8 milyon nəfərdən çox olmaqla ABŞ-da qeydə alınıb. Sonrakı yerlərdə Hindistan, Braziliya, Rusiya, Argentina, İspaniya, Kolumbiya, Fransa, Peru, Meksika, İngiltərə və Cənubi Afrika gəlir.

*Ardı 5-ci səh.*

## 14 tank, 5 PDM, 8 minaatan, 5 hərbi təyinatlı avtomobil...

### Bir gün ərzində Ordumuz düşmənin onlarca hərbi texnikasını dəqiq atəşlə məhv edib və qənimət götürüb





**Müzəffər Azərbaycan Ordusunun Qarabağdakı zəfər yürüşü davam edir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz yeni tarix yazır. Hər gün savaş meydanından xoş xəbərlər gəlir. Əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər.**

İgid hərbçilərimiz uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar. Düşmən Azərbaycan əsgərinin əzmi qarşısında duruş gətirə bilməyərək silahını atıb qaçır. Hər gün düşmənə məxsus çoxsaylı zirehli texnikalar məhv edilir və qənimət kimi götürülür.

### Düşmən təlaşda - ərzaq çatışmır, yanacaq, döyüş sursatı bitir

Cəbhənin müxtəlif istiqamətlərində ağır zərbələr alan Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti döyüşlərdə iştirakdan imtina edir. Müdafiə Nazirliyinin məlumatına əsasən, düşmənin 543-cü alayının ehtiyat bölmələrinin hərbi qulluqçularının Dağlıq Qarabağa getməkdən imtina etdikləri üçün döyüş mövqelərinə kənd sakinlərinin cəlb edildiyi bəlli olub. Hətta belə məlumat da var ki, yerli sakinlər övladlarının döyüşlərdə iştirak etməsinə etiraz əlaməti olaraq bəzi avtomobil yollarını da bağlayıblar.

*Ardı 6-cı səh.*

## Ermənistanda hərbi xunta hakimiyyət çevrilişinə hazırlaşır

### Qarabağdakı məğlubiyyət Paşinyanın mövqeyini sarsıdıb

**Cəbhədə məğlub edilən Ermənistanın siyasi rəhbərliyi hələ də baş verənlərdən lazımi nəticələr çıxara bilmir. Baş nazir Nikol Paşinyanın son açıqlamaları və yeni könüllü dəstələrin yaradılıb Dağlıq Qarabağa göndərilməsi üçün çağırışları bunu sübut edir.**

Məsələ bundadır ki, çıxılmaz vəziyyətdə qalan Paşinyan yeni plan hazırlayıb. Bu plan onu deməyə əsas yaradır ki, Qarabağda döyüşmək üçün ümid yalnız mülki əhaliyə qalıb.

### Ermənilər etiraz edirlər

Amma Paşinyanın yeni planı ermənilər tərəfindən birmənalı qarşılanmayıb. Çoxlu erməni şərh yazaraq Paşinyanın əli silah tuta bilməyən insanları ölümə göndərdiyini bildirib. Sosial şəbəkələrdə yayılan şərhlərin birində qeyd olunur: “Məsələni sülh yolu ilə həll edin! Bəsdir bizləri öldürdüz!

*Ardı 6-cı səh.*

**Düşmənin ümumilikdə 280 tankı, 50 piyadaların döyüş maşını, özüyeriyən 20 artilleriya qurğusu, 53 tank əleyhinə vasitə, 70 “Qrad” qurğusu, 2 “Uraqan”, 2 “Yars”, 1 TOS, 4 “S-300” zenit-raket kompleksi, 198 top, 58 minaatan, 3 “Tor” zenit-raket kompleksi, 40-a yaxın “Osa” zenit-raket kompleksi, 5 “Kub” və “Kruq” zenit-raket kompleksi, 14 pilotsuz uçuş aparatı, 2 əməliyyat-taktiki raket kompleksi - “Elbrus”, 1 ballistik raket, 1 “Toçka-U” raketi, 8 radioelektron mübarizə vasitəsi, 198 yük avtomobili məhv edilib. 12 minaatan, 25 qumbaraatan, piyadaların 24 döyüş maşını, 105 yük avtomaşını hərbi qənimət kimi götürülüb.**

# “Düşmən üzərində qazandığımız qələbələr Sizin cəsarətinizin, uzaqgörənliyinizin və polad iradənizin nəticələridir”

**Müzəffər Azərbaycan Ordusunun cəbhədəki uğurlu əməliyyatları, torpaqlarımızın ardarda işğaldan azad edilməsi vətəndaşlarımızda, xaricdə yaşayan soydaşlarımızda, eləcə də qardaş Türkiyədə və digər ölkələrdə yaşayan azərbaycansevərlərdə böyük sevinc hissi yaradıb. Onlar dövlət başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevə yazdıqları məktublarda bu sevinc hisslərini ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.**



Türkiyənin Ankara şəhərindəki qazilər dövlətimizin başçısına yazırlar: “Möhtərəm cənab Prezident, biz Türkiyə üçün hər zaman xainlərə, separatçı qüvvələrə qarşı mübarizə aparan qazilərik. Bu məktubu yazdığımız vaxtda Sizin, Azərbaycan dövlətinin Şanlı Ordusunun və xalqınızın tarixin ən böyük qəhrəmanlıq dastanlarından birini yazdığınızı görürük. Bu qəhrəmanlıq eposunun yazılmasında hər zaman Sizinlə olduğumuzu bildiririk. Azərbaycan tək deyil, türk dövləti və milləti həmişə olduğu kimi, yenə də Azərbaycanın yanındadır. Biz Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü hədəf alan hər cür cəhd və təxribatına qarşıyıq. Qarabağın işğalının sona çatması üçün Vətən müharibəsini və Azərbaycanın milli mübarizəsini bütün gücümüzlə dəstəklədiyimizi bəyan edirik. Böyük türk milləti, o cümlədən biz qazilər Sizin rəhbərliyinizlə işğalçı Ermənistana qarşı Azərbaycan Silahlı Qüvvələrinin hər bir qələbəsini böyük sevinc və həvəslə qarşılayırıq. Əminik ki, gələcək nəsil türk dünyasının ortaq coğrafiyasını, mədəni, mənəvi dəyərlərinin yaşadılmasını, ümumi tarixi və mədəni dəyərləri qoruyacaq. Bir daha Vətən bildiyimiz Azərbaycanın haqq mübarizəsində yanınızda olmaq üçün hər an Azərbaycana gəlməyə hazır olduğumuzu bildirir, şəhid ailələrinə başsağlığı diləyir, yaralı Azərbaycan qazilərinə şəfa diləyirik”.

Moskva şəhərindən **Tarix Verdiyev** və **Yaqut Verdiyeva** yazırlar: “Cənab Ali Baş Komandan, hörmətli İlham Heydər oğlu, Moskvada yaşayan biz azərbaycanlılar ordumuzun qələbələrinə sevinir, dinc insanlarımızın həlak olmasına çox kədərlənirik.

Cənab müzəffər Ali Baş Komandan, mən vaxtilə tank qoşunlarında xidmət etmişəm. Əmr etsəniz, istənilən vaxt Vətənimizə qayıdıb tarixi torpaqlarımızın işğalçılardan azad edilməsi uğrunda döyüşməyə hazırıq. Bizim işimiz haqq işidir! Vətən hər şeydən ucadır!”

Minsk şəhərindən **Tatyana Laputskaya** və **Oruc Orucov** yazırlar: “Cənab Prezidentimiz, Belarusdan Orucovlar - Laputskilər ailəsi Sizi salamlayır. Sizin komandanlığınız altında Azərbaycan əsgərlərinin işğalçı erməni terrorçuları üzərində qazandığı qələbələrlə qürur duyuruq. Qarabağ həmişə Azərbaycanın olub və əsrlərboyu da Azərbaycanın olacaq. Azərbaycandan gələn hər bir şad xəbəri uzaq Belarusda səbirsizliklə gözləyir, diqqətlə izləyirik. Haqq-ədalətin zəfərinə Sizinlə, Azərbaycan xalqı ilə birlikdə sevinirik. Ordumuzun qələbələrinə görə Sizin sevinc və qürur hissiniz sanki televiziya ekranından bizlərə də sirayət edir. Allah Sizə güc-qüvvət versin ki, Azərbaycan xalqının mənafeyi naminə müdrik siyasətinizi bundan sonra da davam etdirə biləsiniz. Allah Sizi qorusun!”

Rusiyanın Tümen vilayətindən **Füzuli Burcuyev:** “Möhtərəm cənab Prezident, Rusiya Federasiyasının Tümen vilayətinin çoxminlik Azərbaycan diasporu adından və şəxsən öz adımdan Sizə dərin ehtiramımızı bildiririk, Sizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına tam dəstəyimizi ifadə edirik. Sizin ətrafınızda birləşərək daxili və xarici siyasətinizi dəstəkləyən, Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün cəsarətlə mübarizə aparan şanlı Azərbaycan Ordusuna hərtərəfli dəstək verən bütün Azərbaycan xalqının ruh və güc birliyindən qürur və sevinc hissi keçiririk. Ölkədə müxtəlif sahələrdə Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar sayəsində Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası yüksək səviyyəyə çatdırılmışdır ki, Sizin Ali Baş Komandan kimi qarşınıza qoyduğunuz bütün vəzifələrin uğurla yerinə yetirilməsindən əminliklə danışmağa imkan verir. Biz, Tümen vilayətinin Azərbaycan diasporunun nümayəndələri olaraq, Azərbaycanın atəş altında olan kəndləri və şəhərlərinin mülki əhalisinin, eləcə də silahlı qüvvələrinin şəxsi heyəti ailələrinin ehtiyacları üçün dərman, qida, zəruri ehtiyaclar şəklində lazımi humanitar yardım göstərməyə mütləq hazır olduğumuzu bildiririk”.

Tatarıstandan **Ramiz Məmmədovun** məktubunda deyilir: “Hörmətli cənab Prezident, müzəffər Ali Baş Komandan olaraq Sizin qətiyyətli addımlarınız sayəsində Azərbaycanın hərb tarixinə yeni səhifələr yazılır. Məhz buna görə də hazırda dünya azərbaycanlıları çox qürurlu anlar yaşayırlar. Bu sevinci və fərəhi bizlərə bəxş etdiyiniz üçün Tatarıstanda yaşayan soydaşlarımız adından Sizə minnətdarlığımızı bildiririk. Bizlər hər zaman xalqımızla nəfəs alırıq, ürəyimiz Vətənlə döyünür. Sizin “Qarabağ Azərbaycandır!” şüarınızı rəhbər tutaraq, Qarabağ həqiqətlərini Tatarıstanda qürurla təbliğ edirik. Erməni terrorçularına qarşı mübarizədə iştirak etməyə hər an hazır dayanmışıq və müzəffər Ali Baş Komandan kimi Sizin əmrinizi gözləyirik. Tanrı Sizi və xalqımızı qorusun!”

Şəki sakini **Rauf Ağayev** yazır: “Hörmətli Prezident, cənab müzəffər Ali Baş Komandan, hazırda məhkumluq həyatı yaşayıram. Televiziya vasitəsilə cəbhədə gedən hərbi əməliyyatları davamlı olaraq izləyirəm. Ordumuzun düşmən işğalından azad etdiyi kəndləri, şəhərləri gördükcə çox qürurlanıram. Buna görə Sizə və Ordumuza minnətdaram. Lakin ermənilərin bizim dinc əhaliyə qarşı törətdikləri vəhşilikləri gördükcə, şəhid olmuş günahsız körpələrin, anaların qisasını almaq hissi məni bir an belə rahat buraxmır. Cənab müzəffər Ali Baş Komandan, bildirmək istəyirəm ki, igid əsgərlərimizlə birlikdə döyüşmək üçün hər an əmrinizə hazıram”.

Bərdə sakini **Fərman Əkbərli:** “Əziz Prezidentim, mənim adım Fərmandır, 12 yaşım var. Bərdə şəhərində yaşayıram. Mən fəxr edirəm ki, Sizin kimi Prezidentimiz var. İnşallah, torpaqlarımız azad ediləcək, çünki bizim igid əsgərlərimiz var. Düşmənlərimiz xain və acgözdürlər. Biz onlara qalib gələcəyik. Qarabağ bizimdir, bizim olacaq! Qarabağ Azərbaycandır!”

Zəngilan sakini **Ruslan Şirinov:** “Hörmətli müzəffər Ali Baş Komandanımız, şanlı Azərbaycan Ordusu 29 il həsrətini çəkdiyim, doğma torpağım olan Zəngilan rayonunu mənfur işğalçı düşmənlərdən azad etdi. Ailəm adından Sizə və Şanlı Ordumuza minnətdarlığımızı bildirirəm. İnşallah, tezliklə bayrağımız Qarabağda dalğalansın. Biz Sizinlə fəxr edirik! Uca Tanrı Sizi və Ordumuzu qorusun!”

Ağdam sakini **Elbrus Abdullayev:** “Möhtərəm cənab Prezident, Cəbrayıl, Füzuli, Zəngilan şəhərlərinin, Hadrut qəsəbəsinin və bir sıra kəndlərimizin işğaldan azad olunması münasibətilə Ağdam rayon əhalisi adından Sizi təbrik edirəm. Torpaqlarımızın azad olunacağına ümidimizi heç vaxt itirməmişdik. Çünki Sizin rəhbərliyinizlə ölkəmizin iqtisadi baxımdan inkişafı, ordumuzun qüdrətlənməsi və onun maddi-texniki bazasının möhkəmləndirilməsi bizi nikbin düşünməyə sövq edirdi. Bu nailiyyətlərin sonda bizi Qarabağa aparacağına tam qəlbimizlə inanırdıq. Nəhayət həmin gün gəlib çatdı. Bu gün biz addım-addım Qarabağa doğru gedirik. “Hər işin başı səbirdir” - deyirlər. Biz 30 il dözdük, səbir etdik, möhkəmləndik və bu da nəticəsi... Cənab Prezident, Sizdən tezliklə Şuşanın, Xankəndinin azad olunduğu xəbərlərini gözləyirik. Ulu Tanrı hər bir işinizdə köməyiniz olsun”.

Qusar rayonundan **Şahin Ağabalayev** dövlət başçısına yazır: “Möhtərəm cənab Prezident, Zəngilan şəhərinin və ətraf kəndlərinin erməni işğalından azad edilməsi haqqında verdiyiniz zəfər soraqlı xoş xəbər bütün xalqımız kimi, qusarlıları da hədsiz sevindirmişdir. Sizin komandanlığınızla Şanlı Ordumuz tarixin yeni silinməz səhifələrini yazır, mümkünlüyü çətin olan xariqələr yaradır. Artıq ordumuz qələbənin astanasındadır. Xalqımızın 30 ildir gözlədiyi torpaqlarımızın düşmən tapdağından azad edilməsi arzusu artıq reallığa çevrilir. Düşmən üzərində qazandığımız qələbələr Sizin bilavasitə cəsarətiniz, uzaqgörənliyiniz və polad iradənizin gözəl nəticələridir. Tanrı Sizi qorusun. Qələbə bizimdir, Qarabağ Azərbaycandır!”

Şəki sakini **Nicat Qurbanzadə:** “Hörmətli cənab Prezident, hamılıqla Qarabağ uğrunda yürütdüyünüz siyasəti dəstəkləyirik. Bu gün mübarizənin ölkəmizin lehinə davam etməsi Sizin uğurlu siyasətinizin və qüdrətli Azərbaycan Ordusunun yüksək döyüşkənlik əzmində olmasının nəticəsidir. İnanırıq ki, tezliklə tarixi torpaqlarımız tam geri alınacaq və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Sizin kimi dəyanətli, qətiyyətli dövlət başçımız, Prezidentimiz olduğu üçün özümüzü çox qürurlu hiss edirik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Zaqatala sakini **Hüseyn Qazıxanov:** “Hörmətli Prezident, cənab müzəffər Ali Baş Komandan, Sizi və bütün Azərbaycan xalqını torpaqlarımızın azad olunması uğrunda erməni qəsbkarları ilə gedən döyüşlərdə qazandığımız uğurlara görə təbrik edirəm.

Hər dəfə televiziya ilə torpaqlarımızın azad olunması barədə verdiyiniz məlumatlar bizi ziyalıları çox qürurlandırır. Sizin uzaqgörən siyasətinizi dəstəkləyirəm. İşğal olunmuş hər bir qarış torpağın azad olunması, Azərbaycanın çiçəklənməsi naminə Sizin ətrafınızda yumruq kimi birləşdiyimizi əminliklə bildirirəm. Cənab Prezident, Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri kimi biz - saxurlular da Sizinlə fəxr edir, Azərbaycanın xoş gələcəyi naminə Sizə, əsgər və zabitlərimizə cansağlığı arzu edirik. Üçrəngli bayrağımızın Şuşada, Xankəndidə, bütün qalan şəhər və kəndlərdə dalğalanması ümidi ilə Tanrı Sizə yar olsun”.

Gəncə şəhərindən **Natiq Bayramov** yazır: “Hörmətli cənab Prezident, nəhayət illərdir işğal altında qalan torpaqlarımız Sizin qətiyyətiniz, şücaətiniz və uzaqgörən siyasətiniz sayəsində yadelli işğalçılardan azad olunur. Bütün xalq əmindir ki, tezliklə yağı düşmən torpaqlarımızdan qovulacaq, o torpaqlar öz əzəli və əbədi sahiblərinə qovuşacaq. Mən birinci Qarabağ müharibəsində iştirak etmişəm və Qarabağ veteranıyam. Yenidən könüllü olaraq cəbhəyə getmək üçün rəsmi qeydiyyatdan keçdim. Lakin yaşıma və qismən səfərbərlik olduğuna görə aparmadılar. Cənab müzəffər Ali Baş Komandan, bir daha öz bilik və təcrübəmi doğma Vətənimin erməni işğalçılarından azad edilməsinə sərf etməyə hazır olduğumu bildirirəm. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Füzuli sakini **Mənsur Əliyev:** “Hörmətli Prezident, cənab müzəffər Ali Baş Komandan, işğal altında olan torpaqlarımızın azad edilməsi, Vətənimizin bütövləşməsi uğrunda apardığınız müdrik siyasət öz bəhrəsini verir. Bu gün Azərbaycanın üçrəngli bayrağı Füzulidə, Cəbrayılda, Zəngilanda dalğalanır. İnşallah, tezliklə Azərbaycanın digər dilbər guşələri də azad olunacaq. Ulu Tanrı Sizi və Azərbaycanın müzəffər Ordusunu qorusun. Qarabağ bizimdir!”

Naxçıvandan **İmaməli Məmmədov:** “Cənab müzəffər Ali Baş Komandan, Vətənimizin bütövlüyü, torpaqlarımızın yağı düşməndən təmizlənməsi uğrunda apardığınız qətiyyətli siyasətiniz hər bir vətəndaşımızın ürəyindən xəbər verir. Sizə və komandanlığınız altında vuruşan igid əsgər və zabitlərimizə bu haqq işində yeni-yeni zəfərlər, qələbə sevincləri arzu edirəm. Bütün naxçıvanlılar kimi, mən də hər an cəbhəyə getməyə, Vətən uğrunda döyüşərək canımdan, qanımdan keçməyə hazıram. Yaxşı ki, Sizin kimi Prezidentimiz var. Hər bir azərbaycanlı Sizinlə qürur duyur. Allahdan Sizə möhkəm cansağlığı, hər zaman ucada olmağı arzu edirəm”.

Bakı şəhər sakini **Sabir Alışov:** “Hörmətli cənab Prezident, üç cəbhədə Azərbaycan xalqı naminə uğur qazandığınıza görə Sizə minnətdaram və Sizi təbrik edirəm. Bəli, Siz, eyni zamanda, 3 cəbhədə vuruşursunuz. Koronavirusla mübarizə, informasiya müharibəsi və hazırda torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlər. Böyük və Qadir Allahın köməyi ilə uğurlar əldə edirik. Sizin zəhmətinizi Allah yerdə qoymaz. Mən bir sadə vətəndaş kimi bütün ziyalılarımızdan xahiş edirəm ki, informasiya müharibəsində öz güclərindən maksimum istifadə etsinlər. Ləyaqətli xalqımın ləyaqətli rəhbəri, on milyonluq xalqımın arzusudur ki, Yeni ili Şuşada, Xankəndidə qeyd edək. Haqq-ədalət bizimlədir, Qələbə də bizimlə olacaqdır! Qələbəyə doğru İlhamla irəli!”

Şamaxı sakini **Anar Xanaliyev:** “Möhtərəm Prezident, cənab müzəffər Ali Baş Komandan, bu gün Sizin rəhbərliyinizlə bizim Şanlı Ordumuz düşmənə qalib gəlir, bizə qələbə, zəfər əzmini yaşadır və biz bundan qürur duyuruq. Biz fəxr edirik ki, Sizin kimi Prezidentimiz və Ali Baş Komandanımız var. Siz həmişə xalqa, ölkəmizə qayğı göstərir, çətinlikləri üzərimizdən yox edirsiniz. Ona görə də hər zaman xalq Sizi sevib və Sizə güvənib. Siz xalqın böyük sərkərdəsi, Milli Qəhrəmanımızsınız. “Qarabağ Azərbaycandır!” deyib bizi Qələbəyə doğru apardınız. Mən Sizi çox sevirəm və qürur hiss keçirirəm ki, azərbaycanlıyam, Siz isə Azərbaycanın Prezidentisiniz. Şanlı Ordumuz qazandığı qələbələr məni də böyüyəndə hərbçi olmağa ruhlandırır. Bu zəfəri bizə yaşatdığınız üçün Sizə minnətdaram, cənab Prezident. Mən Sizinlə və Şanlı Ordumuzla fəxr edirəm”.

Culfadan **Nahid Babayev** yazır: “Hörmətli Prezident, cənab müzəffər Ali Baş Komandan, Sizi həyata keçirdiyiniz uğurlu siyasət münasibətilə təbrik edirəm. 30 ilə yaxın bir müddətdə ev-eşiyindən didərgin düşmüş 1 milyondan çox məcburi köçkün Sizin və rəşadətli Ordumuzun hünəri sayəsində öz yurd-yuvasına qayıdacaq. Cənab Prezident, Sizin çıxışlarınızı və verdiyiniz müsahibələri dinlədikcə biz daha da qürrələnirik. Fəxr edirik ki, bizim güclü Liderimiz və qüdrətli Ordumuz var. Allah Sizi və hazırda cəbhəboyu inamla irəliləyən qəhrəman əsgərlərimizi qorusun! Allah amanında. Qarabağ Azərbaycandır!”

Füzuli sakini **Rəhman Rüstəmov:** “Hörmətli Prezident, cənab müzəffər Ali Baş Komandan, bütün ailə üzvlərim adından Sizə dərin minnətdarlığımızı bildirirəm. Doğma Füzulimizin hər qarışının artıq azad olunduğunu düşündükcə qəlbimiz dağa dönür.

Hörmətli müzəffər Ali Baş Komandan, Azərbaycanın işğal olunmuş torpaqlarını murdarlardan təmizlədiyiniz üçün Sizə canımız və qanımızla borcluyuq. Eşq olsun Prezidentimizə!”

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevaya

Möhtərəm cənab Prezident İlham Əliyev!

Əziz Mehriban xanım Əliyeva!

Biz, Böyük Britaniya, İtaliya, Portuqaliya və Türkiyədən olan kinematoqraflar 2011-2012-ci illərdə “Bakı, səni sevirəm” adlı beynəlxalq layihə işləyib hazırlamışıq. Çəkilişlər Azərbaycanın paytaxtı Bakıda həyata keçirilib. Bakının gözəlliyinə və azərbaycanlıların qonaqpərvərliyinə heyran olduq!

Son günlər Azərbaycandan gələn xəbərlər bizi narahat edir. Gəncə şəhərinə raket hücumu nəticəsində günahsız insanların həyatını itirməsi bizi çox üzdü. Qurbanların ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığımızı bildiririk.

Baş verənlər bizi hiddətləndirib! Müasir dünyamızda belə hallar olmamalıdır!

Sizə və gözəl xalqınıza mənəvi dəstəyimizi ifadə etmək istərdik. Səmimi-qəlbdən arzu edirik ki, müharibə tezliklə başa çatsın. Qoy, Azərbaycanın ərazi bütövlüyü və Azərbaycan xalqının rifahı əbədi olsun!

Biz Sizinləyik!

*Hörmətlə,*

***Türkiyədən aktrisa Eyşan ÖZHİM,***
***Portuqaliyadan rejissor Andre BADALO,***
***İtaliyadan aktyor Alesandro BERTOLUÇİ,***
***İngiltərədən rejissor Aleksandr FODOR,***
***Türkiyədən prodüser Nadir MAÇANOV***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Son günlərdə Ermənistan tərəfindən Gəncə şəhərində yaşayış binalarına edilmiş hücum nəticəsində, habelə Dağlıq Qarabağdakı hərbi əməliyyatlarda həyatını itirmiş insanların yaxınlarına və zərər çəkmiş şəxslərə dərin hüznlə başsağlığı vermək istərdik. Mülki insanlara qarşı yönəlmiş bütün qanunsuz hərəkətləri qınayırıq.

BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri Azərbaycanın BMT tərəfindən qəbul edilmiş ərazi bütövlüyü çərçivəsində dərhal icra edilməlidir.

Cənab Prezident, biz həmsədrlərimiz xanım Vayra Vike-Freyberqa, İsmail Serageldin, eləcə də Mərkəzin baş katibinin sonsuz dəstəyi ilə əməkdaşlıq çərçivəsində çalışaraq Nizami Gəncəvi Beynəlxalq Mərkəzində Dağlıq Qarabağla bağlı müzakirələr aparırıq.

Cənab Prezident, Sizə yüksək hörmət və ehtiramımızı bildiririk.

***Leonid KUÇMA,***
***1994-2005-ci illərdə Ukraynanın Prezidenti***

***Abraham FOKSMAN,***
***ABŞ-ın Nyu York şəhərindəki***
***Yəhudi İrsi Muzeyinin Qəyyumlar***
***Şurası sədrinin müavini***

## “Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Nazirlər Kabinetinin Qərarı

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1.2-1-ci yarımbəndə “və Zərdabi kəndlərinə” sözlərindən sonra “, Mingəçevir şəhərinə, Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala rayonlarına” sözləri əlavə edilsin;

1.2. 1.1.15-ci yarımbəndə “Quba” sözündən sonra “, Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala” sözləri əlavə edilsin.

2. Bu Qərar 2020-ci il 24 oktyabr saat 00:00-dan qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş Naziri***

*Bakı şəhəri, 23 oktyabr 2020-ci il.*

## Nazirlər Kabineti Azərbaycanın işğal olunmuş ərazilərinə təhrif edilmiş formada istinad edən xəritələrdən istifadə hallarının qarşısının alınması istiqamətində işləri davam etdirir

**Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinə təhrif edilmiş formada istinad edən xəritələrdən istifadə hallarının qarşısının alınması istiqamətində Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müvafiq işlər davam etdirilir.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, beynəlxalq təşkilatların, qeyri-hökumət təşkilatlarının, xarici şirkətlərin və digər qurumların internet səhifələrində yerləşdirilmiş xəritələrdə Ermənistan tərəfindən işğal edilmiş ərazilərimizlə əlaqədar təhrif halları aşkarlanıb, bu təşkilatlarla aparılmış iş nəticəsində təhrif edilmiş xəritələrdən istifadə dayandırılıb. Görülmüş tədbirlər çərçivəsində müəyyən xəritələrdən işğal edilmiş ərazilərimizdə yaradılmış qanunsuz rejimə istinadlar çıxarılıb, Şuşa və Xankəndi başda olmaqla bir çox yaşayış məntəqələrimizin adlarının düzgün formada verilməsi təmin edilib.

Azərbaycan toponimlərinə düzgün istinad edilməsinin təşviqi və gələcəkdə baş verə biləcək təhrif hallarının qarşısının alınması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 fevral 2020-ci il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə təhrif edilmiş formada istinad edilən xəritələrdən istifadə hallarının qarşısının alınmasına dair Tədbirlər Planı” təsdiq edilib.

Tədbirlər Planı çərçivəsində Nazirlər Kabinetinin rəhbərliyi ilə ölkəmizə aid coğrafi adların düzgün yazıldığı və beynəlxalq standartlara uyğun elektron xəritələrin (rəqəmsal, interaktiv və yüksək dəqiqlikli) hazırlanması, beynəlxalq platformalara inteqrasiya edilməsi məqsədilə alternativ platformanın (internet resurs) yaradılması, açıq kateqoriyalı milli məkan məlumatlarının formalaşdırılması siyasətinin hazırlanması, xəritə yaradan beynəlxalq təşkilatlarla davamlı əlaqələrin qurulması, müvafiq danışıqların aparılması, təqdim edilən coğrafi məlumatların beynəlxalq standartlara uyğunlaşdırılmaqla daim yenilənməsi, milli transliterasiya (bir yazı sistemindəki hərflərin başqa yazı sisteminin hərfləri ilə verilməsi) standartı əsasında ölkəmizə aid coğrafi adların müxtəlif dillərdə yazılışını əks etdirən elektron bazanın yaradılması, internet platformalarında yayılmış xəritələrdə təhrif hallarının aradan qaldırılması işinə gənclər təşkilatlarının və diaspor qurumlarının cəlb edilməsi və bir çox digər istiqamətlərdə intensiv iş aparılmaqdadır.

Görülmüş tədbirlər çərçivəsində internet platformalarında yayılmış xəritələrdə işğal altındakı ərazilərdə toponimlərimizin təhrif olunmasının qarşısının alınması, sosial şəbəkələrdə və internet platformalarında Azərbaycan həqiqətlərinin daha aktiv təbliğində gənclər və könüllülər təşkilatlarının, ali təhsil müəssisələrində və dövlət xətti ilə xaricdə təhsil alan tələbələrin rolunun gücləndirilməsinə xüsusi diqqət yetirilir. Bu məqsədlə işçi qruplar formalaşdırılıb, təhrif halları ilə bağlı beynəlxalq platformalara şikayətlərin ünvanlanması, sosial şəbəkələrdə etiraz aksiyalarının təşkil edilməsi ilə bağlı mütəmadi tədbirlər görülməkdədir.

Aparılmış işlər nəticəsində xaricdəki diplomatik nümayəndəliklərimiz və diaspor təşkilatlarımız vasitəsilə xaricdə keçirilən tədbirlərdə Azərbaycan ərazilərini təhrif olunmuş formada təqdim edən xəritələrin və digər vəsaitlərin həmin tədbirlərdən yığışdırılması, məsələ ilə bağlı təşkilatçıların maarifləndirilməsi istiqamətində uğurlu addımlar atılmaqdadır.

Bundan əlavə GİS (Coğrafi informasiya sistemi) proqram təminatı əsasında inzibati rayonların sərhədləri, şəhərlərin, rayon mərkəzlərinin və digər yaşayış məntəqələrinin adları və sərhədləri, küçələrinin adları ilə bağlı məlumatları özündə əks etdirən müvafiq elektron baza yaradılıb. GİS formatında hazırlanmış məlumat bazasının özəl sektor nümayəndələrinin də cəlb edilməsi ilə açıq tipli məlumat formatına çevrilməsi istiqamətində tədbirlər davam etməkdədir.

Həmçinin respublikanın bütün şəhər və rayonları üzrə 4590 şəhər, rayon, qəsəbə, kənd və inzibati ərazi vahidlərinin adları ilkin variantda rus və ingilis dillərində hazırlanıb.

Eyni zamanda ölkəmizin ərazi bütövlüyü ilə bağlı yanlış məlumatları əks etdirən əyani vəsaitlərin (həmçinin kitab, dəftər, qlobus, jurnal, qəzet, broşür kimi kağız məlumat daşıyıcıları və elektron informasiya daşıyıcıları) respublika ərazisinə idxalına nəzarətin gücləndirilməsi və aşkarlanan halların aradan qaldırılması istiqamətində təxirəsalınmaz tədbirlər görülür.

Azərbaycanın işğal olunmuş ərazilərinə təhrif edilmiş formada istinad hallarının qarşısının alınması istiqamətində işlər davam etdiriləcək.

# Milli Məclisin Sədri Türkiyənin TV24 telekanalına müsahibə verib

**Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyənin TV24 televiziya kanalına müsahibə verib.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, müsahibədə Milli Məclisin Sədri Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsinin həllində danışıqlar masasında olmasının vacibliyindən danışıb. Bildirib ki, Türkiyə bu gün dünyada sözünü birbaşa söyləyə bilən və sözü keçən bir neçə ölkədən biridir. Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan Azərbaycana dəstəyini yüksək səslə dilə gətirir.

Sədr qeyd edib ki, ATƏT-in Minsk qrupu vasitəçilik missiyasını yerinə yetirə bilməyib. Təxminən 30 ilə yaxın bir müddət ərzində Azərbaycana çox ümidlər verilsə də, Minsk qrupunun fəaliyyəti heç bir nəticə verməyib və Ermənistanın işğalçı ordusunu torpaqlarımızdan çəkməyiblər. İndi isə Azərbaycan Ordusu özü işğalçını öz torpaqlarımızdan çıxarır.

Spiker deyib ki, biz Türkiyəyə güvənirik. Bundan sonra formatın adı nə olursa olsun - Minsk qrupu da ola bilər, başqa ad da ola bilər, heç fərq etməz - amma Prezident İlham Əliyevin də dediyi kimi, Türkiyə mütləq masada olmalıdır.

# Prezidentin köməkçisi Hikmət Hacıyev BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsinə dair müzakirələrini şərh edib

**İyirmi beş illik fasilədən sonra BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 29 sentyabr və 19 oktyabr tarixlərində müzakirələr keçirilib.**

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev KİV-ə açıqlamasında bu müzakirələr barədə məlumat verib.

Prezidentin köməkçisi deyib: "Təəssüf hissi ilə qeyd etmək istərdik ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin işğalı ilə əlaqədar 822, 853, 874 və 884 saylı dörd qətnaməsinin qəbul olunmasına baxmayaraq, BMT TŞ-də Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar sonuncu müzakirələr 1995-ci ildə keçirilib.



BMT Təhlükəsizlik Şurasının qətnamələrində Ermənistanın Azərbaycana qarşı gücdən istifadə etməsi pislənilir, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu vurğulanır və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılması tələb olunur.

Oktyabrın 19-da BMT TŞ-də Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar keçirilmiş müzakirələrdən sonra Təhlükəsizlik Şurasının sədri adından bəyanat layihəsi hazırlanıb. Bəyanat layihəsində BMT TŞ-nin məlum qətnamələrinə istinad öz əksini tapmayıb. Sözügedən layihə əsasən Rusiya Federasiyası və Fransa tərəfindən hazırlanıb.

BMT TŞ-nin qeyri-daimi üzvləri olan və Qoşulmama Hərəkatının (QH) üzvü olan İndoneziya, Niger, Tunis, Vyetnam, Cənubi Afrika, Sent Vinsent və Qrenadin və Dominikan Respublikası iki dəfə sükut prosedurunu pozaraq, BMT TŞ-nin qətnamələrinə istinadın bəyanata daxil edilməsinə israr ediblər. Bununla həmin dövlətlər BMT Nizamnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT TŞ-nin qətnamələrinə, Bandunq prinsiplərinə, QH-nin sənədlərinə sadiqliyini növbəti dəfə nümayiş etdiriblər.

Qoşulmama Hərəkatı üzv dövlətlərinin israrlı və prinsipial mövqeyindən sonra haqqında bəhs olunan bəyanat layihəsi rəsmən geri götürülüb.

Prezident İlham Əliyev İndoneziya, Niger, Tunis, Vyetnam, Cənubi Afrika, Sent Vinsent və Qrenadin və Dominikan Respublikasına həmrəylik göstərərək ədalətli və prinsipial mövqelərinə görə təşəkkürünü ifadə edir. Bildirir ki, Qoşulmama Hərəkatının Sədri kimi 2019-cu ildə Bakıda keçirilmiş XVIII Zirvə toplantısında çıxışında dediyi kimi, bundan sonra da üzv dövlətlərin maraqlarını, beynəlxalq hüququ və ədaləti BMT-də və digər beynəlxalq təşkilatlarda müdafiə edəcək.

Qoşulmama Hərəkatının Sədri qismində Prezident İlham Əliyev bütün QH üzv ölkələrinə müraciət edərək, Bandunq prinsipləri əsasında həmrəyliyə, birliyə və qarşılıqlı dəstəyə çağırır".

# Milli Məclisin Sədri Türkiyənin "Daily Sabah" nəşrinə müsahibə verib

**Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova Türkiyənin nüfuzlu "Daily Sabah" nəşrinə müsahibə verib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Spiker müsahibəsində Ermənistan-Azərbaycan münaqişəsindən danışıb, uzun illər Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan xalqına qarşı törədilən xain terrorçuluq əməllərindən söz açıb.

Sahibə Qafarova vurğulayıb ki, biz Ermənistanın terrorçuluq əməlləri ilə 30 ildir üzüzəyik. 1992-ci ildə baş verən Xocalı faciəsini, Ermənistanın Azərbaycanın ayrı-ayrı yerlərində törətdiyi digər terror hadisələrini hər kəs görüb.

Spiker bildirib ki, bu ilin iyulunda Ermənistan silahlı qüvvələri Tovuz rayonuna hücum etməklə Azərbaycanın 20 faiz torpaqlarını işğal altında saxlamaqla qane olmadıqlarını, işğalın coğrafiyasını genişləndirməyə çalışdıqlarını ortaya qoydular.

Ermənilərin yeni torpaq iddiaları avqustda ölkəmizə kəşfiyyat-diversiya qruplarını göndərməklə yenidən tam ortaya çıxdı, onlar yeni müharibəyə hazırlaşdıqlarının mesajını verdilər. Sentyabrın 27-də isə Ermənistan silahlı qüvvələri cəbhə xəttinin müxtəlif istiqamətlərindən hücuma keçdilər. Azərbaycan Ordusu da müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əks-hücum əməliyyatlarına, işğal altındakı torpaqları azad etmək üçün savaşa başladı.

Parlamentin Sədri Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması üzrə mandat almış ATƏT-in Minsk qrupunun 30 ildə heç bir önəmli addım atmadığını vurğulayıb. Spiker bildirib ki, Ermənistanın bu müddətdə BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarını qeyd-şərtsiz işğaldan azad etmələri haqqında qətnamələrinə və digər beynəlxalq təşkilatların məsələ ilə bağlı sənədlərinə məhəl qoymadığını da Türkiyə oxucularının diqqətinə çatdırıb. Azərbaycanın bu gün öz ərazi bütövlüyünü rəşadətli Ordusunun gücü ilə, hərbi yolla azad etməkdən başqa çıxış yolunun qalmadığını bildirib.

Sahibə Qafarova deyib ki, Azərbaycanın müzəffər Ordusu ilə bacara bilmədiyini aşkar surətdə görən Ermənistan hələ də xain terrorçuluq əməllərindən əl çəkmir. İşğalçı ölkənin Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni, digər şəhər və rayonlarımızı ballistik raket atəşinə tutması buna bariz sübutdur. Bu əməllər nəticəsində onlarca mülki vətəndaş həlak oldu, 50-yə yaxın dinc sakin xəsarət aldı. Ölənlər arasında azyaşlı uşaqlar, məktəblilər və qocalar var.

Daha sonra Spiker Ermənistanın Azərbaycan Ordusunun gücü qarşısında duruş gətirə bilmədiyi üçün öz məğlubiyyətinə müxtəlif don geyindirməyə çalışmasından, Ordumuzla bağlı həqiqətə uyğun olmayan iddialar irəli sürməsindən danışaraq deyib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyinin bu kimi iddiaları həqiqətdən tamamilə uzaqdır. Əksinə, Ermənistan silahlı qüvvələrinin tərkibində ASALA, PKK ünsürlərinin, müxtəlif ölkələrdən gələn silahlı muzdluların olması faktlarla sübut olunmuşdur.

Müsahibədə Milli Məclis Sədri vurğulayıb ki, Azərbaycanın heç bir başqa dövlətin torpağında gözü yoxdur. Lakin heç kəsin də Azərbaycan torpaqlarına göz qoymasına imkan verməyəcək. Biz öz Vətənimizi azad edirik və bu yolda sonuna qədər gedəcəyik. Azərbaycan heç vaxt öz torpağında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək.

Sahibə Qafarova müsahibədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və bütün türk xalqının daim Azərbaycanın yanında olduğunu bəyan edib, bu dəstəyin xalqımız üçün çox dəyərli olduğunu bildirib.

Spiker bu günlərdə Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun ölkəmizə səfərindən də danışıb. O, Mustafa Şentopun Milli Məclisin iclasında çıxış etməsinin, iclasdan dərhal sonra isə Gəncəyə yollanaraq oradakı vəziyyəti görməsi və insanları ziyarət etməsinin Türkiyənin Azərbaycana dövlət dəstəyinin bariz nümunəsi olduğunu deyib.

"Dost çətin gündə tanınar. Türkiyə də çətin gündə bizə dost və qardaş əli uzadan ilk ölkədir. Biz bu qardaşlığın sarsılmaz təməllər üzərində qurulduğuna və daim yaşayacağına inanırıq", - deyə Milli Məclisin Sədri vurğulayıb.

# Əli Əhmədov Şanxay Əməkdaşlıq Təşkilatının Beynəlxalq Partiyalararası Forumunda iştirak edib

**Oktyabrın 23-də Şanxay Əməkdaşlıq Təşkilatının "İnsanlar üçün iqtisadiyyat" mövzusunda videokonfrans formatında Beynəlxalq Partiyalararası Forumu keçirilib. Bu barədə AZƏRTAC-a Yeni Azərbaycan Partiyasının (YAP) Mətbuat xidmətindən məlumat verilib.**






Forumu giriş sözü ilə açan Rusiya Federasiyası Dövlət Dumasının Sağlamlıq qorunması üzrə komitəsinin sədri Dmitri Morozov mövzunun aktuallığından danışıb. O, bu məsələdə Şanxay Əməkdaşlıq Təşkilatının rolunu vurğulayıb, o cümlədən siyasi partiyaların verə biləcəyi töhfələrdən bəhs edib.

Daha sonra Rusiya Federasiyasının Səhiyyə naziri Mixail Muraşko, Qazaxıstan Respublikasının Səhiyyə naziri Aleksey Çoy, Çin Xalq Respublikasının Səhiyyə nazirinin müavini Yu Syejun çıxış edərək COVID-19 infeksiyasının ölkələrin sosial-iqtisadi həyatına təsiri və pandemiya ilə mübarizə tədbirləri haqqında fikirlərini bildiriblər.

Forumda Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov "COVID-19 pandemiyasının sosial-iqtisadi nəticələrinə və təhlükəli yoluxucu xəstəliklərin yayılmasına qarşı mübarizədə məsul siyasi partiyaların rolu" mövzusunda çıxış edib. Əli Əhmədov bu tədbirə dəvət üçün "Vahid Rusiya" Partiyasının rəhbərliyinə təşəkkür edib. O deyib ki, bu tədbirin Yeni Azərbaycan Partiyasının kifayət qədər aktiv tərəfdaşlıq münasibətləri qurduğu "Vahid Rusiya" Partiyasının vasitəçiliyi ilə keçirilməsi ona xüsusi əhəmiyyət və aktuallıq verir. Əli Əhmədov həmçinin Azərbaycanın ŞƏT-in işində müşahidəçi qismində iştirak etdiyini diqqətə çatdırıb.

COVID-19 pandemiyasının Azərbaycandan da yan keçmədiyi deyən Əli Əhmədov bildirib ki, təhlükəli xəstəliyin qarşısının alınması ilə əlaqədar ölkə rəhbərliyi vaxtında qabaqlayıcı tədbirlər həyata keçirdi. Pandemiya başlayandan strategiyamız Ümumdünya Səhiyyə Təşkilatının bütün təlimatlarını məsuliyyətlə və səmərəli şəkildə həyata keçirmək və dünyada həm keçmişdə, həm də indiki dövrdə pandemiya ilə mübarizədə qazandığımız müsbət təcrübədən istifadə etmək idi. Təcrübə Azərbaycanda koronavirus pandemiyasına qarşı bu yanaşmanın müdrikliyini sübut etdi və sübut etməyə də davam edir. Vaxtında görülən sanitariya və epidemioloji tədbirlər koronavirusun yayılma sürətini xeyli azaltdı. Xarici sərhədlərin bağlanması ilə Azərbaycan bölgəmizdə ilk olaraq vətəndaşların hərəkətinə məhdudiyyət tətbiq etdi. Pandemiyaya qarşı mübarizə məqsədilə cəmiyyətin və dövlətin resurslarının səfərbər edilməsi kifayət qədər uğurlu hesab edilə bilər. Bütün yoluxmuş insanlar üçün əlverişli bir müalicə təmin etmək üçün çox iş başlatdıq. Bu işin aşağıdakı tərkib hissələrini qeyd etmək istərdim. Birincisi, ölkədə əhəmiyyətli bir hissəsi koronavirus xəstələrinin ehtiyaclarına həsr olunmuş müasir bir səhiyyə infrastrukturunun mövcudluğudur. İkincisi, ən qısa müddətdə iki min çarpayılı on modul xəstəxananın yaradılmasıdır. Koronavirus xəstələri ilə təmasda olan həkimlərin və səhiyyə işçilərinin əməkhaqları xeyli artırılıb".

Əli Əhmədov qeyd edib ki, görülən profilaktik tədbirlər nəticəsində koronavirusla bağlı vəziyyət nəzarətdə saxlanıla bilər. Hazırda Azərbaycanda koronavirus statistikası belədir: epidemiyanın başlanğıcından bəri 43.000 insan bu virusa yoluxub ki, onların da 40.000-i sağalıb. Xəstəlikdən vəfat edənlərin sayı isə 620 nəfərdir. Müqayisəli təhlil Azərbaycanda COVID-19 ilə mübarizənin müəyyən müsbət nəticələr verdiyini deməyə imkan verir. Beləliklə, dünyada bir milyon əhaliyə düşən infeksiya sayı 5 mindən çoxdur və Azərbaycanda bu rəqəm 4 mindən bir az çoxdur. Eləcə də ölüm sayına gəlincə, dünyada hər milyon insana 132 ölüm düşür, Azərbaycanda isə bu göstərici 62-dir.

"Bütün ölkələrdə olduğu kimi, pandemiya da respublikamızın həyatında dərin sosial-iqtisadi nəticələrlə müşayiət olunur. İqtisadi cəhətdən inkişaf etmiş bir sıra ölkələrdə ÜDM-in on faiz və ya daha çox azalması fonunda bunun ən nikbin ssenarilərdən birinin Azərbaycanda olduğunu deyə bilərik. Ancaq bu, koronavirusun iqtisadi və sosial nəticələrinə qarşı mübarizəyə diqqəti zəiflətmək üçün bir səbəb deyil. Bu sahədə Azərbaycan hökumətinin davranış modeli bir çox cəhətdən bir çox ölkənin hökumətlərinin fəaliyyəti ilə üst-üstə düşür. Bu model birincisi, əhalinin, xüsusən onun yoxsul hissəsinə sosial dəstəyi, ikincisi, kiçik və orta sahibkarlığa geniş dəstək, üçüncüsü, karantin rejiminin tətbiqi nəticəsində qazancından məhrum olan vətəndaşlara əmək haqqının ödənilməsi kimi tədbirləri əhatə edir", - deyə Əli Əhmədov vurğulayıb.

Çıxışının sonunda YAP Sədrinin müavini sentyabrın 27-dən etibarən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış vəziyyət barədə tədbir iştirakçılarına məlumat verib. Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etdiyini və bunun nəticəsində 1 milyondan çox insanın öz doğma torpaqlarında yaşamaq hüququndan məhrum olduğunu deyən Əli Əhmədovun sözlərinə görə, Ermənistanın işğalçılıq siyasətinə son qoyulmalı və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü təmin olunmalıdır.

Forumda digər çıxış edənlər də toplantının mövzusu barədə fikirlərini bildiriblər.

# İran Azərbaycanın işğaldan azad olunmuş sərhədyanı ərazilərində quruculuq işlərinin həyata keçirilməsində maraqlıdır

**İran Azərbaycanın işğaldan azad olunmuş sərhədyanı ərazilərində quruculuq işlərinin həyata keçirilməsində maraqlıdır.**



İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi ilə görüşüb. Nazir ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə səfiri təbrik edib və uğurlar arzulayıb. Vurğulayıb ki, Azərbaycan və İran prezidentlərinin siyasi iradəsi və dostluq münasibətləri ikitərəfli əməkdaşlığın inkişafında əsas hərəkətverici qüvvədir. Son 7 ildə dövlət başçıları arasında 13 yüksəksəviyyəli görüş keçirilib və mühüm qərarlar qəbul edilib. Bildirilib ki, ölkələrimiz arasında iqtisadiyyatın müxtəlif sahələrində tərəfdaşlıq inkişaf edir, Azərbaycanın əlverişli biznes mühitindən yararlanan İran şirkətlərinin sayı artır, qarşılıqlı investisiya əməkdaşlığı həyata keçirilir, birgə layihələr icra olunur.

M.Cabbarov Ermənistanın ölkəmizə qarşı təcavüzkar siyasəti və son təxribatları, günahsız mülki əhaliyə və mülki obyektlərə raket zərbələri endirərək törətdiyi terror və müharibə cinayətləri, Azərbaycanın beynəlxalq hüquq çərçivəsində vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi və torpaqlarımızın işğaldan azad olunması üçün öz ərazisində apardığı əks-hücum əməliyyatı barədə məlumat verib, İranın münaqişənin Azərbaycanın ərazi bütövlüyünün bərpası və suverenliyinə hörmət çərçivəsində həllinə dəstək verdiyini vurğulayıb.

Səfir Seyid Abbas Musəvi İranın Ermənistan-Azərbaycan münaqişəsində ölkəmizin ədalətli mövqeyini və ərazi bütövlüyünü tam dəstəklədiyini, hər cür separatizmi pislədiyini vurğulayıb. İran səfiri ölkəsinin Azərbaycanın işğaldan azad olunmuş sərhədyanı ərazilərində quruculuq işlərinin həyata keçirilməsində maraqlı olduğunu, həmçinin Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" hidroqovşaqları və su elektrik stansiyaları layihələrinin birgə icrasının iqtisadi əməkdaşlığımızı daha da dərinləşdirəcəyini diqqətə çatdırıb.

Görüşdə sənaye, kənd təsərrüfatı, nəqliyyat-logistika, investisiya, kiçik və orta sahibkarlıq, ticarət, turizm və sair sahələrdə əməkdaşlığın inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# *İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi:* "Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət əsasdır və yüksək dəyərə malikdir"

İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Hadi Süleymanpur Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini - icra katibi Əli Əhmədova məktub ünvanlayıb. Bu barədə AZƏRTAC-a YAP-ın Mətbuat xidmətindən bildirilib.

Məktubda deyilir: "Bu yaxınlarda atəşkəs razılaşmasının pozulması və Dağlıq Qarabağ bölgəsində gərginliyin artmasının regional sülh və sabitliyə ciddi təhlükə törətməsi ilə əlaqədar dərin narahatlığımı bölüşmək istəyirəm. Həmçinin Azərbaycan Respublikasının hökumətinə, azərbaycanlı bacı və qardaşlarımıza, xüsusən də öz vətənini və xalqını müdafiə yolunda həyatlarını qurban verən qəhrəman əsgərlərin, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı ifadə edirəm. Eləcə də Azərbaycanın münaqişə zonasından uzaqda yerləşən Gəncə şəhərinin günahsız mülki əhalisinə qarşı son hücumlarla beynəlxalq humanitar hüququn pozulmasından dərin narahatlığımı bildirirəm.

Regional iqtisadi təşkilat olaraq və özünün Azərbaycan Respublikası kimi ən vacib üzvlərindən biri olan İqtisadi Əməkdaşlıq Təşkilatı dayanıqlı sosial-iqtisadi hədəflərə çatmaq naminə regionda sülh və sabitliyin əhəmiyyətini tam dərk edir. Bu məqsədlə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət əsasdır və yüksək dəyərə malikdir.

Fürsətdən istifadə edərək vəziyyətin deeskalasiyası üçün dərhal və davamlı atəşkəsin razılaşdırılması istiqamətində beynəlxalq səylərə və münaqişənin beynəlxalq hüquq və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında sülh yolu ilə həllinə dəstəyimizi bir daha təkrarlayıram".

# Baş Nazirin müavini, YAP-ın Sədr müavini-icra katibi Əli Əhmədov Rusiya Təhlükəsizlik Şurasının Sədr müavini, "Vahid Rusiya" Partiyasının sədri Dmitri Medvedevə məktub ünvanlayıb

Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - icra katibi Əli Əhmədov Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədr müavini, "Vahid Rusiya" Partiyasının sədri Dmitri Medvedevə məktub ünvanlayıb. Bu barədə AZƏRTAC-a YAP-ın Mətbuat xidmətindən məlumat verilib.

Məktubda deyilir: "Bu günlərdə Rusiya Federasiyasının Dövlət Dumasının "Vahid Rusiya" Partiyasından olan üzvü Vitali Milonovun Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qeyri-qanuni səfəri Azərbaycan ictimaiyyətində ciddi narazılıq doğurmuş, onun adı Azərbaycana girişi qadağan olunan xarici vətəndaşlar siyahısına əlavə edilmişdir. Bu qanunsuz səfər Ermənistanın Azərbaycana qarşı təcavüzünə və işğal olunmuş ərazilərdə yaradılmış qondarma rejimə dəstəyin ifadəsi olub, Azərbaycan ilə Rusiya arasındakı hərtərəfli dostluq və tərəfdaşlıq münasibətlərinin ruhuna ziddir".

Əli Əhmədovun məktubunda Milonovun "Vahid Rusiya" Partiyasının üzvü olması vurğulanaraq qeyd edilir ki, onun bu addımı indiyədək ikitərəfli qaydada və beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edən Yeni Azərbaycan Partiyası tərəfindən xüsusi təəssüf hissi ilə qarşılanır.

YAP Sədrinin müavininin məktubunda daha sonra qeyd olunur: "Dövlət Dumasının üzvünün belə bir məsuliyyətsiz addımı ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında vasitəçilik missiyasını yerinə yetirən Rusiya Federasiyasının illər ərzində apardığı fəaliyyətlə ziddiyyət təşkil edir. Sentyabrın 27-dən etibarən Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatının nəticəsində başlayan döyüşlərin getdiyi bir vaxtda işğalçıya rəğbət ifadə edən səfərdə iştirak etmək Rusiya Federasiyasının Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləyən rəsmi mövqeyinə qarşı çıxmaq deməkdir.

Gələcəkdə Rusiyanın rəsmi şəxsləri tərəfindən bu cür qanunsuz və təxribatçı fəaliyyətlərin qarşısının alınması üçün müvafiq tədbirlərin görüləcəyinə ümid edirik".

# Xarici İşlər naziri Ceyhun Bayramov ABŞ-a işgüzar səfəri çərçivəsində Dövlət katibi Mayk Pompeo ilə görüşüb



Oktyabrın 23-də ABŞ-a işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibi Mayk Pompeo ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ermənistan-Azərbaycan münaqişəsində son vəziyyətlə bağlı müzakirə aparıb, Ermənistan tərəfinin destruktiv siyasəti, azərbaycanlı dinc əhalinin məqsədyönlü şəkildə atəşə tutulması, xaricdən muzdluların və terrorçuların kütləvi cəlb olunması və sair məsələlər barədə ətraflı məlumat verib.

Nazir Ceyhun Bayramov vurğulayıb ki, Azərbaycanın haqlı mövqeyi BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsinə və digər beynəlxalq təşkilatların müvafiq sənədlərinə əsaslanır.

Söhbət zamanı həmçinin Azərbaycan-ABŞ ikitərəfli əlaqələrinə dair məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# Latviya Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası üzrə əməkdaşlıqda maraqlıdır

**Latviya Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası üzrə əməkdaşlıqda maraqlıdır.**



İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarovun Latviyanın Azərbaycandakı səfiri Daynis Qarançs ilə görüşündə iki ölkə arasında əlaqələrin genişləndirilməsinin önəmi vurğulanıb, qarşılıqlı rəsmi səfərlərin və keçirilən görüşlərin əməkdaşlığın inkişafında rolu qeyd edilib. Bildirilib ki, ölkələrimiz iqtisadiyyatın bir sıra istiqamətləri üzrə səmərəli əməkdaşlıq edir. Ticarət əlaqələrinin şaxələndirilməsi və artırılması da prioritet istiqamətlərdəndir. Bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün yeni mexanizmlər tətbiq edilir. Belə ki, Latviyanı da əhatə etməklə Mərkəzi Avropanın 10 ölkəsi üzrə Azərbaycan Ticarət nümayəndəliyi və Riqada "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir. Bununla yanaşı, iki ölkənin iş adamları arasında çoxsaylı biznes forumlar, işgüzar görüşlər keçirilib, Riqaya ixrac missiyası təşkil olunub. Azərbaycan Latviya ilə həmçinin Avropa İttifaqının Tvinninq aləti çərçivəsində də uğurlu əməkdaşlıq edir.

M.Cabbarov Ermənistanın ölkəmizə qarşı işğalçı siyasəti və bu ilin sentyabrın 27-dən Azərbaycana qarşı növbəti təxribatlara başlaması, günahsız mülki əhaliyə və mülki obyektlərə raket zərbələri endirərək törətdiyi terror və müharibə cinayətləri, Avropanın enerji təhlükəsizliyində önəmli rola malik boru kəmərlərini zədələmək cəhdləri barədə məlumat verib. Vurğulayıb ki, Azərbaycan beynəlxalq hüquq çərçivəsində vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi və torpaqlarımızın işğaldan azad olunması üçün öz ərazisində uğurlu əks-hücum əməliyyatları aparır.

Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyət istiqamətlərini qeyd edən İqtisadiyyat naziri postpandemiya dövründə Latviya ilə qarşılıqlı investisiya qoyuluşlarının artırılmasının əhəmiyyətini, nəqliyyat, kənd təsərrüfatı, dövlət-özəl tərəfdaşlığı, əczaçılıq, turizm, rəqəmsal iqtisadiyyat sahələrində əməkdaşlıq imkanlarını diqqətə çatdırıb. Bildirilib ki, həm Azərbaycan, həm də Latviya Avropa ilə Asiya arasında tranzit yükdaşımalarında mühüm yer tutur. Hər iki ölkədə inkişaf etmiş nəqliyyat infrastrukturunun mövcudluğu bu sahədə əməkdaşlığın genişləndirilməsinə yaxşı perspektivlər vəd edir. Görüşdə həmçinin Latviya şirkətləri Ələt Azad İqtisadi Zonasının potensialından yararlanmağa dəvət edilib.

Səfir D.Qarançs Latviyanın Azərbaycanla əlaqələrin inkişafına önəm verdiyini qeyd edib. Azərbaycanda fəaliyyətindən məmnunluğunu ifadə edən səfir iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb. O, ölkəsinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası üzrə əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb.

Görüşdə iqtisadi-ticarət əməkdaşlığının inkişafı və digər məsələlər müzakirə edilib.

# *Ramin QULUZADƏ:* "Erməni təxribatları bütün regionda İKT-nin inkişafına əngəl törədir"

Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) və Vyetnamın birgə təşkilatçılığı ilə "ITU Virtual Digital World 2020" beynəlxalq tədbiri çərçivəsində nazirlər səviyyəsində dəyirmi masa keçirilib.





Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, BTİ-yə üzv olan çoxsaylı ölkənin İKT üzrə rəsmilərinin qatıldığı videotədbir COVID-19 pandemiyası zamanı və sonrakı dövrdə rəqəmsal texnologiyaların rolu mövzusunu ehtiva edib.

Tədbir BTİ-nin baş katibi Houlin Zao, Vyetnamın İnformasiya və Kommunikasiya naziri Nquyen Man Hunq və BTİ-nin Radiorabitə Bürosunun direktoru Mario Manieviçin açılış nitqləri ilə başlayıb.

COVID-19 pandemiyasının qlobal və milli səviyyədə rəqəmli inkişafa təsirinə dair müzakirələrin aparıldığı dəyirmi masada Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə çıxış edib.

Nazir ölkəmizdə COVID-19-la mübarizə və pandemiyanın təsirini minimuma endirmək üçün görülmüş işlər barədə müfəssəl məlumat verib. R.Quluzadə bildirib ki, pandemiya zamanında da vətəndaşlar yüksəkkeyfiyyətli nəqliyyat, poçt və telekommunikasiya xidmətləri, o cümlədən internet və mobil rabitə xidmətləri ilə təmin edilib. Telekommunikasiya infrastrukturunun davamlılığı tələbata uyğun olaraq artırılıb.

Nazir dövlət qurumları tərəfindən yeni informasiya sistemlərinin yaradıldığını, xüsusi veb-saytlarla yanaşı, vətəndaşlar üçün məlumat-bildiriş sistemi və yoluxmuş insanlar üçün izləmə sistemi olaraq istifadə olunan mobil tətbiqetmənin hazırlandığını diqqətə çatdırıb.

"Pandemiya dövründə təhsil üzrə "Connected schools" və qurumlar üçün videokonfrans xidmətlərinin təmin edilməsi məqsədilə "Connected Government" layihələrinin tətbiqinə başladıq", - deyə R.Quluzadə qeyd edib.

Nazir Azərbaycanın hazırda iki cəbhədə mübarizə apardığını söyləyib: "Pandemiya ilə yanaşı, bütün regionda İKT-nin inkişafına əngəl törədən erməni təxribatlarına və təcavüzlərinə cavab olaraq lazımi addımlar atırıq".

R.Quluzadə əlavə edib ki, Ermənistanın son hərbi təxribatları səbəbindən Azərbaycanın bir neçə bölgəsində İKT və telekommunikasiya infrastrukturu ya tamamilə məhv edilib, ya da ciddi şəkildə ziyan görüb. Son günlər bu təcavüz nəticəsində uşaqlar da daxil olmaqla, Azərbaycanın 63 dinc sakini həlak olub və 293 mülki şəxsi yaralanıb.

Nazir sonda qeyd edib ki, bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan hökuməti inkişaf strategiyalarını genişləndirmək üçün səylərini davam etdirəcək.

# Nazir Ramin Quluzadə İran səfirinə Ermənistanın təcavüzkar siyasətindən danışıb

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə İran İslam Respublikasının ölkəmizdəki səfiri Seyid Abbas Musəviyə Ermənistanın təcavüzkar siyasəti barədə məlumat verib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə səfiri təbrik edən nazir ona fəaliyyətində uğurlar arzulayıb. Görüş zamanı R.Quluzadə oktyabrın 22-də Zəngilan rayonunun Ağbənd qəsəbəsi və Ağbənd sərhəd zastavasının işğaldan azad edilməsi ilə Azərbaycan və İran dövlət sərhədinin tam nəzarətə götürüldüyünü diqqətə çatdırıb. Bu münasibətlə İran dövlətini və xalqını təbrik edib. Öz növbəsində səfir də Azərbaycan xalqına təbriklərini çatdırıb. Nazir həmçinin səfirə Ermənistanın ölkəmizə qarşı son hərbi təxribatları, təcavüzkar siyasəti, mülki əhaliyə və mülki obyektlərə raket zərbələri endirərək törətdiyi hərbi və müharibə cinayətləri barədə məlumat verib.

Görüşdə iki ölkə arasında nəqliyyat, İKT və poçt sahələrində əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# *Quram MARXULİYA:* "Azərbaycan-Gürcüstan münasibətləri nümunəvi xarakter daşıyır"

**Gürcüstan və Azərbaycan bənzərsiz münasibətlərə malikdirlər və bu münasibətlər strateji xarakter daşıyır. Ölkələrimiz arasındakı əlaqələrin daim yüksək səviyyədə olması Gürcüstanın və Azərbaycanın liderlərinin xarici siyasətində prioritetdir.**

Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstanın Suxumi Dövlət Universitetinin professoru, politoloq Quram Marxuliya söyləyib.

Onun sözlərinə görə, ölkələrimiz arasında əməkdaşlıq yalnız siyasi deyil, həm də iki ölkə arasında qarşılıqlı faydalı təmasların əsas katalizatoru olan iqtisadi sahə ilə bağlıdır. Azərbaycan ilə Gürcüstan arasında iqtisadi əlaqələrin inkişafı Türkiyəni də əhatə edir və bizim bütöv üçlüyümüz var. Hər üç ölkə Azərbaycandan neft və təbii qazın dünya bazarlarına çıxarılması üçün nəqliyyat-kommunikasiya xətlərinin yaradılması sahəsində səmərəli əməkdaşlıq edir. G.Marxuliya deyib ki, bölgədəki geostrateji tərəfdaşlıq Azərbaycan və Gürcüstan arasındakı münasibətlərin keyfiyyətini dəyişdirməyə imkan yaradır.

Onun sözlərinə görə, tərəflər arasında daha dərin qarşılıqlı əlaqə üçün formatlar axtarılır. Bugünkü siyasi reallıq Cənubi Qafqazın təhlükəsizliyi üçün yeni addımlar atmağa imkan verir. Nəticədə iki ölkə arasındakı münasibətlər daha da inkişaf edəcək. "İnanıram və əminliklə söyləyə bilərəm ki, Azərbaycan-Gürcüstan münasibətləri bütün dünya üçün nümunədir", - deyə Q.Marxuliya vurğulayıb.

# Türkiyə qaziləri və şəhid ailələrinin üzvləri Azərbaycana dəstək bəyanatı qəbul ediblər

Türkiyə qaziləri və şəhid ailələrinin üzvləri Azərbaycana dəstək bəyanatı qəbul ediblər.

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir:

"Hamımız Azərbaycanıq, hamımız Qarabağıq!

Biz Türkiyənin müxtəlif şəhərlərində yaşayan Türkiyə dövlətinin yaşaması üçün gözünü, qolunu, ayağını və bədəninin bir çox üzvünü itirən qazilər və qəhrəman övladlarını, qardaşlarını şəhid verən minlərcə Vətən, millət fədaisiyik.

Minlərlə insan adından 162 qazi və şəhid ailəsi üzvü olaraq bildiririk ki, Azərbaycanın tarixi əraziləri olan Dağlıq Qarabağın və ətrafındakı rayonların işğalına 32 ildir sözdə sülh və həll istəyən türkə düşmən dövlətlər tərəfindən laqeydlik göstərilib və bölgədəki işğalçı qüvvələrin, yəni ermənilərin namərdliyinə hər dəfə göz yumulub. Ancaq son nəticədə başda Azərbaycan hökuməti olmaqla, xalqımız və dost dövlətlərimiz sülhün və atəşkəsin artıq heç bir yaraya məlhəm olmadığını, əksinə, qaysaq bağlamış yaralarımızın daha da dərinləşdiyini anlayıb.

Azərbaycan Respublikası öz problemini özü həll edəcək və işğal olunmuş torpaqlarının hamısını hərbi əməliyyatlarla azad edəcək əzmə və gücə malik olduğunu göstərdi.

Biz Azərbaycan dövlətini və eyni millətin övladları olan Azərbaycan türklərini sevir, Azərbaycan Ordusuna, milli dəyərlərə sahib çıxan bütün vətəndaşlarımıza, Azərbaycan hökumətinə və Azərbaycan Prezidentinə etibarımızın və dəstəyimizin tam olduğunu bildiririk.

Azərbaycanın tək olmadığını, türk dövləti və xalqının qardaş hesab etdiyi ölkənizin hər zaman olduğu kimi, bu gün də yanında olduğunu, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü hədəfə alan bütün təxribatlarına və təhrikedici fəaliyyətlərinə qarşı çıxdığımızı, bütün gücümüzlə Azərbaycanın Dağlıq Qarabağın işğalına son qoyması üçün apardığı Vətən müharibəsini və milli mübarizəsini dəstəklədiyimizi bəyan edirik.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin işğalçı Ermənistana qarşı mübarizədə qazandığı hər qələbə türk xalqı və biz qazilər tərəfindən böyük sevinc və coşqu ilə qarşılanır. Bu baxımdan türk dünyası coğrafiyasının mədəniyyət, mənəviyyat və vətən dəyərlərinin gələcək nəslin öz tarixinə və mədəniyyətinə sahib çıxması baxımından önəmli olduğunu düşünürük.

Türkiyə və Azərbaycan xalqlarının əvvəldən sonadək nümayiş etdirdiyi həmrəylik nümunəsi kimi, biz qazilər də Azərbaycanın Vətən müharibəsində eyni cəbhədə olduğumuzu beynəlxalq ictimaiyyətə çatdırırıq.

Tarixi döyüş meydanlarında quraraq, mədəniyyət sahəsində yaşadan xalq Dağlıq Qarabağı həm döyüş meydanında, həm də danışıqlar masasında qazanacaqdır.

Azərbaycan dövlətinə və onun rəhbərlərinə səslənirik: Hər an əmrinizdəyik. Sərhədlərdən kənardakı qardaşlarınız da yanınızdadır. Yalnız irəli!

Qəlbimiz səninlədir, Azərbaycan! Hamımız Azərbaycanıq, hamımız Qarabağıq!

1. Anadolu Avrasiya Qazi və Şəhid Ailələri Dəstəkləmə və Yardımlaşma Dərnəyi
2. Daxili Anadolu Şəhid Ailələri və Qazilər Dərnəyi
3. Manisa Şəhid Ailələri və Qazilər Dərnəyi
4. Qazi Mehmet Yavuz, Şanlıurfa Şəhid Ailələri Dərnəyinin sədri
5. Şəhid Qazi Sen Yerli İdarəçilər İdarəsi
6. Qazi polkovnik Mihat İşık (Kipr qazisi)
7. Qazi polkovnik Mehmet Yıldız
8. Qazi polkovnik Ahmet Özkoca
9. Qazi Abdullah Anadolu
10. Qazi Abdurrahman Dağdələn
11. Qazi Adnan Kaya
12. Qazi Adnan Yavuz
13. Qazi Ahmet Aslan
14. Qazi Ahmet Çetin Demirhan
15. Qazi Ahmet Kocaeli
16. Qazi Ahmet Özduman
17. Qazi Ahmet Özmen
18. Qazi Ali Arman
19. Qazi Ali Gümüştaş
20. Qazi Ali Murat Cin
21. Qazi Ali Timur
22. Qazi Ali Yıldız
23. Qazi baş çavuş Murat Oğuz
24. Qazi baş çavuş Ali Gümüştaş
25. Qazi kiçik çavuş Nurettin İnce
26. Qazi Ayhan Sütçü
27. Qazi Baran Timuçin
28. Qazi Bekir Sami Atıcı
29. Qazi Bülent Canyurt
30. Qazi Bülent Sönmez
31. Qazi Coşkun Yalçın
32. Qazi Cumhur Uysal
33. Qazi Dolunay Ermiş
34. Qazi Engin Şanlı
35. Qazi Erdal Özcan
36. Qazi Erdal Turan
37. Qazi Erdinç Külekcioğlu
38. Qazi Erkan Baysel
39. Qazi Erkan Dağ
40. Qazi Fatih Taşkın
41. Qazi Fatih Uçar
42. Qazi Fazlı Arslan
43. Qazi Haldun İnceer
44. Qazi Halil Şenocak
45. Qazi Halis Dinler
46. Qazi Hamza Ekin
47. Qazi Hayati Akbulut
48. Qazi Hayati Ceylan
49. Qazi Hayri Oruç
50. Qazi Hidayet Akkoyunlu
51. Qazi Hilmi Düzenli
52. Qazi Hüdaverdi Mercan
53. Qazi Hüseyin Aksoy
54. Qazi Hüseyin Bilbey
55. Qazi Hüseyin Sevik
56. Qazi Hüseyin Turan
57. Qazi İsmail Doğan
58. Qazi İsmail Durusu
59. Qazi İsmail Konak
60. Qazi İzzet Alpman
61. Qazi İzzet Ertunç
62. Qazi Kadir Arık
63. Qazi Kadir Garip
64. Qazi Kamber Okdemir
65. Qazi Kamil Sunal
66. Qazi Kasım Çoban
67. Qazi Kazım Dalkıç
68. Qazi Kenan Demirel
69. Qazi Kenan Erken
70. Qazi M.Salih Aslan
71. Qazi Mahmut Demir
72. Qazi Mehmet Çelik
73. Qazi Mehmet Çetinkıran
74. Qazi Mehmet Gün
75. Qazi Mehmet Harun İnce
76. Qazi Mehmet Kuşat
77. Qazi Mehmet Şahan
78. Qazi Mehmet Tezyel
79. Qazi Mehmet Yeşil
80. Qazi Mehmet Zanapa
81. Qazi Metin Erdem
82. Qazi Muhammet Tekin
83. Qazi Muhterem Doğan
84. Qazi Murat Gököz
85. Qazi Murat Kavak
86. Qazi Murat Kavas
87. Qazi Murat Yalçın
88. Qazi Musa Çopur
89. Qazi Musa Duman
90. Qazi Mustafa Aksu
91. Qazi Mustafa Kemal Solak
92. Qazi Mustafa Köse
93. Qazi Mustafa Şahbaz
94. Qazi Nihat Erdoğdu
95. Qazi Nuh Saray
96. Qazi Onur Gülmez
97. Qazi Osman Tekeş
98. Qazi Ömer Duran
99. Qazi Ömer Sevinç
100. Qazi Sabahattin Aslan
101. Qazi Sabahattin Külah
102. Qazi Satılmış Kabakcı
103. Qazi Sedat Aksakallı
104. Qazi Sedat Pekdoğan
105. Qazi Selçuk Çelik
106. Qazi Selçuk Kendirli
107. Qazi Semih Orta
108. Qazi Semih Talu
109. Qazi Sercan Tekçe
110. Qazi Serdar Aytekin
111. Qazi Serhat Koca
112. Qazi Soner Yiğit
113. Qazi Süleyman Dindar
114. Qazi Şaban Çiçek
115. Qazi Şafak Mert
116. Qazi Şenol Demirci
117. Qazi Şerif Kuşuluoğlu
118. Qazi Şükrü Velioğlu
119. Qazi Şükrü Yıldırım
120. Qazi Tahsin Kor
121. Qazi Tarkan Yılgün
122. Qazi Turgut Bab
123. Qazi Uğur Özcan
124. Qazi Umut Azaklı
125. Qazi Umut Biçer
126. Qazi çavuş Abdullah Gazioğlu
127. Qazi çavuş Ahmet Tarık Külege
128. Qazi çavuş Salih Üstünbaş
129. Qazi Ümit Kaplan
130. Qazi Ümit Tepe
131. Qazi baş leytenant Serdar Öztürk
132. Qazi baş leytenant Bahattin Seçkin
133. Qazi Vahap Tümen
134. Qazi Yılmaz Yiğit
135. Qazi Yunus Baştuğ
136. Qazi Yunus Emre
137. Qazi Yusuf Can Kuraner
138. Qazi Yusuf Özkaplan
139. Qazi Yusuf Öztürk
140. Qazi kapitan Cemal Demirhan
141. Qazi kapitan Cemal Mutlu
142. Qazi kapitan Hüseyin Kızılay
143. Qazi kapitan Kadir Koçyiğit
144. Qazi kapitan Nafiz Kaplan
145. Qazi kapitan Özgür İlgün
146. Qazi Zafer Cömert
147. Qazi Zekeriya Gökyar
148. Qazi Zeki Dilmen
149. Qazi kapitan Bünyamin Kasımoğlu (Kipr qazisi)
150. Şəhid anası Zehra Sezen
151. Şəhid atası Doğan Gömük
152. Şəhid atası Ömər Öztürk
153. Şəhid atası Salih Çevikoğlu
154. Şəhid atası Satılmış Demir
155. Şəhid atası Şaban Uran
156. Şəhid qardaşı Murad Hatunoğlu
157. Qazi Seval Taka
158. Qazi Murat Diler
159. Qazi Mehmet Çeliker
160. Qazi Ahmet Kaygısız (Kipr qazisi)".

# Azərbaycan Ombudsmanının Türkiyənin Baş Ombudsmanı ilə birgə həyata keçirdiyi faktaraşdırıcı missiyanın nəticələrinə dair Bəyanat qəbul edilib

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Ombudsmanlar Assosiasiyasının prezidenti, Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçun rəhbərlik etdiyi nümayəndə heyəti tərəfindən Gəncədə həyata keçirilən birgə faktaraşdırıcı missiya ilə bağlı Ombudsman Aparatında brifinq keçirilib.

AZƏRTAC xəbər verir ki, brifinqdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə şəhəri və digər ərazilərini mütəmadi olaraq atəşə tutması, mülki əhali arasında tələfat və çoxsaylı dağıntılarla nəticələnən hücumlar barədə danışılıb. Brifinqdə diqqətə çatdırılıb ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisini raket atəşinə tutması nəticəsində baş vermiş çoxsaylı insan tələfatı və dağıntılarla bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) İslam Əməkdaşlıq Təşkilatı Ombudsmanlar Assosiasiyasının Prezidenti və Türkiyə Respublikasının Baş Ombudsmanı ilə birgə həyata keçirdiyi faktaraşdırıcı missiyanın nəticələrinə dair Bəyanat qəbul edilib.

Eyni zamanda ombudsmanlar tərəfindən birgə faktaraşdırıcı missiyada toplanmış materiallar əsasında hazırlanacaq hesabatın beynəlxalq təşkilatlara göndəriləcəyi bildirilib.

Müdafiə Nazirliyi xəbər verir

# Anar EYVAZOV: “Ordumuzun zəfər yürüşü davam edir”

Oktyabrın 22-si gün ərzində və 23-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib.



Düşmən müdafiə mövqelərimizi, o cümlədən Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atıcı silahlardan və artilleriya qurğularından atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 23-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulub, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb, vacib ərazi və yüksəkliklər azad edilib.

Ağcabədi rayonu və digər istiqamətlərdə uçuş keçirməyə cəhd göstərən düşmənin 3 pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib, 2-si isə xüsusi texniki vasitələrlə yerə endirilib.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, bütün cəbhəboyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpa olunmayan zərər vurulub. Döyüş texnikası, silah və sursat, ərzaq ehtiyatları azalan düşmən artıq qoşunlarını praktiki olaraq idarə edə bilmir. Məlum olub ki, Ermənistanın Tavuş və Sisian rayonlarından Dağlıq Qarabağa gətirilmiş şəxsi heyət də Azərbaycan əsgərləri ilə döyüşlərə girməkdən imtina edir, mövqeləri qoyub qaçır. Döyüş mövqelərini qorumaq üçün nizami ordu bölmələri çatışmadığından onların əvəzinə məcburi şəkildə toplanan mülki insanlar gətirilir. Düşmənin vəziyyəti öz xeyrinə dəyişdirmək cəhdləri də tam olaraq iflasa uğrayıb.

Diqqətə çatdırılıb ki, bu gün Prezident, müzəffər Ali Baş Komandanımız İlham Əliyev özünün rəsmi “Twitter” hesabında müzəffər Azərbaycan Ordusunun Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq, Xocavənd rayonunun Dolanlar, Bünyadlı, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad etdiyini bildirib.

“Hazırda cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuzun zəfər yürüşü davam edir. Qələbə bizimlədir!”, - deyə Anar Eyvazov vurğulayıb.

## Ermənistan tərəfinin İranın Azərbaycan mövqelərini artilleriya atəşinə tutması barədə yaydığı məlumat yalandır

Ermənistan tərəfinin, guya, İranın hava məkanına Azərbaycan Ordusuna məxsus kamikadze-dronun daxil olmasından sonra bu ölkənin Azərbaycanın mövqelərini artilleriya atəşinə tutması barədə yaydığı məlumat yalandır və düşmənin növbəti dezinformasiyasıdır.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, İran-Azərbaycan dövlət sərhədinin tam nəzarətimizə götürülməsindən təşvişə düşən Ermənistan tərəfi bu cür yalan xəbərlər yaymaqla iki ölkə arasında olan yüksəksəviyyəli münasibətlərə xələl gətirməyə cəhd göstərir.

Azərbaycan ilə İran arasında mövcud olan və dərin tarixi köklərə malik siyasi, iqtisadi, dini, mədəni və digər sahələrdə əməkdaşlığımız uğurla inkişaf edir.

Beynəlxalq ictimaiyyət tərəfindən lazımi dəstək ala bilməyən Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycan-İran münasibətlərinin uğurlu inkişafından da ciddi narahatlıq keçirdiyi üçün çıxış yolunu yalan və böhtan xarakterli məlumatların yayılmasında görür.

## Düşmənin 4 PUA-sı zərərsizləşdirilib

Oktyabrın 23-ü saat 03.00-dan 09.00-dək Ermənistan silahlı qüvvələrinə məxsus 2 pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, digər 2 PUA isə xüsusi texniki vasitələrlə yerə endirilib.

## Azərbaycan Ordusu mülki əhalini və infrastrukturu atəşə tutmur

Dağlıq Qarabağ ərazisindəki Ağdərə, Xocavənd və Qırmızı Bazar yaşayış məntəqələrinin, guya, Azərbaycan Ordusu tərəfindən atəşə tutulması barədə Ermənistanın yaydığı xəbərin heç bir əsası yoxdur və yalandır.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tam tərsinə, oktyabrın 23-ü gecə ərzində və bu gün səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi intensiv atəşə tutulub.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayır.

## Ermənistan ordusunun canlı qüvvəsi və zirehli texnikası məhv edilib









Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan ordusunun qüvvə və vasitələrinin darmadağın edilməsinin videogörüntülərini paylaşıb. Videogörüntülərdə Azərbaycan Ordusunun düşmən mövqelərinə sarsıdıcı zərbələr endirməsi əks olunub.

***

Müdafiə Nazirliyi yerdəyişmə etməyə hazırlaşan düşmənin canlı qüvvəsi və zirehli texnikasının məhv edilməsinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.



Biz birlikdə güclüyük!

# Operativ Qərargah: “Karantin qaydaları yenidən sərtləşdirilir”

**Hazırda dünya ölkələri üzrə yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmada artım müşahidə olunmaqdadır.**

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, bu günədək dünyada 42 milyondan çox şəxs COVID-19 infeksiyasına yoluxmuş, 1 milyondan çox insan isə bu xəstəlikdən vəfat edib. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, son həftələrdə bir çox ölkələrdə, o cümlədən Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına yüksək yoluxma halları qeydə alındığından karantin qaydaları yenidən sərtləşdirilir. Ölkə ərazisində mövcud sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, son günlər Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala rayonları və Mingəçevir şəhərində yüksək yoluxma faktları aşkar olunub.

COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə 2020-ci il 24 oktyabr saat 00:00-dan Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala rayonlarına və Mingəçevir şəhərinə operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, eləcə də yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla giriş-çıxış dayandırılır. Eyni zamanda Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax və Zaqatala rayonlarında aşağıdakı tarixlərdə ictimai nəqliyyatın hərəkəti dayandırılır:

-24 oktyabr saat 00:00-dan 26 oktyabr saat 06:00-dək

-31 oktyabr saat 00-dan 2 noyabr saat 06:00-dək

Vətəndaşlarımızı COVID-19 virusu ilə mübarizə sahəsində mövcud karantin tələblərinə riayət etməyə, eləcə də qoruyucu maskalardan və digər zəruri tibbi-profilaktik vasitələrdən istifadə etməyə, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa çağırırıq.

# Vətən savaşımız pandemiyanı unutdurmamalıdır

**Mehriban ƏLİYEVA:** “Bu gün, ordumuz öz tarixi missiyasını davam etdirdiyi bir vaxtda dövlətimizin, o cümlədən səhiyyə sisteminin üzərinə düşən yükü maksimum azaltmaq lazımdır”

*Əvvəli 1-ci səh.*

Ermənistanda isə bütün sahələrdə olduğu kimi, pandemiya ilə bağlı vəziyyət də hər keçən gün daha da pisləşir. Artıq bu ölkədə sutka ərzində COVID-19 infeksiyasına yoluxanların sayı 2 min 5 yüz nəfər civarında olur. Ümumilikdə isə, burada koronavirusa yoluxanların sayı sürətlə 75 minə yaxınlaşır.

“Əminəm ki, biz bu vəzifənin öhdəsindən gələcəyik və bir daha sübut edəcəyik ki, gücümüz birlikdədir!”

Azərbaycanda infeksiyanın yayıldığı ilk gündən etibarən ona qarşı sistemli və genişmiqyaslı tədbirlər həyata keçirilir. İstər vətəndaşların sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi, istərsə də koronavirus xəstələrinin müalicəsi, səhiyyə infrastrukturunun təkmilləşdirilməsi, yeni xəstəxanaların açılması və tibb müəssisələrinin texniki təchizatı baxımından bütün məsələlər hərtərəfli həll edilib.

Qlobal pandemiyaya qarşı düzgün strategiyanın nəticəsidir ki, ölkəmiz koronavirusun ən təhlükəli ilkin məqamlarında belə onun yarada biləcəyi mümkün fəsadlardan sığortalandı. Sanitar-epidemioloji vəziyyətin təhlilinə uyğun görülən tədbirlər sayəsində COVID-19-u nəzarətolunan səviyyədə saxlamaq mümkün oldu.

ÜST nümayəndələrinin də proqnozlaşdırdığı kimi, payız-qış mövsümünün gəlməsi ilə bu təhlükəli infeksiya ikinci, üçüncü dalğaları ilə yenidən dünyanı çənginə almağa başlayıb.

Son zamanlar Azərbaycanda koronavirusa yoluxanların sayında ciddi artım müşahidə edilir ki, bu da hər birimizdə narahatlıq yaradır. Xüsusilə cəbhə bölgəsində şiddətli döyüşlərin getdiyi bir zamanda COVID-19-a yoluxanların sayının artması problemin olduqca ciddiliyini bir daha göz önünə gətirir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva da “Trend” İnformasiya Agentliyinə müsahibəsi zamanı bütün vətəndaşlarımızı koronavirusun təhlükəli olduğunu unutmamağa çağırıb: “Mən sizin hər birinizi koronavirusun təhlükəli olduğunu unutmamağa, aylarla riayət etdiyimiz elementar qaydaları gözləməyə, məsafəyə riayət etməyə, həqiqətən, real zərurət olmadığı halda insanların kütləvi şəkildə toplaşdığı yerlərə getməməyə çağırıram. Bizə yaxşı məlum olan bütün bu qaydalar yoluxma riskini azaltmağa və deməli, bizi və yaxınlarımızı xəstəlikdən qorumağa kömək edər. Biz yaşlı nəslə həmişə xüsusi qayğı və hörmətlə yanaşırıq. Pandemiyanın birinci mərhələsi dövründə biz onları qayğı ilə qoruduq. Əminəm ki, indiki şəraitdə biz daha diqqətli olacağıq”.

Mehriban xanım vurğulayıb ki, bu gün, ordumuz öz tarixi missiyasını davam etdirdiyi bir vaxtda dövlətimizin, o cümlədən səhiyyə sisteminin üzərinə düşən yükü maksimum azaltmaq lazımdır: “İndi bütün resursların bizim xilaskarlıq əməliyyatı üzərində cəmləşməsi müstəsna əhəmiyyət kəsb edir. Biz arxa cəbhədə öz sağlamlığımızın qeydinə qalmaqla, sayıqlıq və intizam nümayiş etdirməklə, eyni zamanda ön cəbhədəki əsgərlərimizə kömək edir və onları qoruyuruq. Əminəm ki, biz bu vəzifənin öhdəsindən gələcəyik və bir daha sübut edəcəyik ki, gücümüz birlikdədir!”

### Yoluxma sayının azalması insanların arxayınlaşmasına gətirib çıxardı

O da reallıqdır ki, son vaxtlar pandemiya ilə mübarizədə ölkəmizdə əldə olunan uğurlar cəmiyyətdə vaxtından əvvəl arxayınlıq yaradıb. Sosial məsafənin gözlənilməsi, maskadan və dezinfeksiya vasitələrindən istifadə unudulub. Elə buna görədir ki, mövcud sanitar-epidemioloji vəziyyət, koronavirusa yoluxmuş aktiv xəstə sayı və yoluxma sürəti əsas götürülməklə, xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiq olunmasına qərar verilib. Oktyabrın 19-dan noyabrın 2-dək ölkə üzrə bütün təhsil müəssisələrində tətil elan olunub. Dövlət qurumlarında çalışan işçilərin say həddi 30 faizədək azaldılaraq digər əməkdaşlar məsafədən iş rejiminə keçirilib. Yüksək risk qrupuna daxil olan 65 yaşdan yuxarı şəxslərin ən zəruri hallarda yaşayış yerlərini tərk etmələri tövsiyə edilib. Nazirlər Kabinetinin qərarına əsasən, noyabrın 2-dək Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti də dayandırılıb.

Mütəxəssislər koronavirusa yoluxma sayında artımın bu cür davam edəcəyi təqdirdə məhdudiyyətlərin artırılacağını da istisna etmirlər. TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva söyləyib ki, payız-qış mövsümündə virusa yoluxanların sayında artımın gözlənildiyi barədə açıqlama verilmişdi: “Havalar hələ çox soyumayıb. Biz indi bəlkə də bunu əsas səbəb olaraq qeyd edə bilmərik. Deməli, burada başqa səbəblər var. Yoluxma sayının azalması sentyabr ayından insanların arxayınlaşmasına gətirib çıxardı. Bu da yoluxma sayında artıma səbəb oldu”.

### Hər iki qəddar düşmənin fürsətini kəsməyin vaxtıdır

Yuxarıda da vurğulandığı kimi, hazırda Azərbaycanda pandemiya ilə bağlı vəziyyətin ciddiləşməsinin başlıca səbəblərindən biri də Ermənistanın növbəti təxribatı nəticəsində başlanmış müharibədir. Vətən savaşımız cəmiyyətimiz üçün ciddi təhlükə olan pandemiyanı unutdurub və arxa plana keçirib. Amma bilməliyik ki, koronavirusla mübarizədə fəal olmaq, xüsusi karantin rejiminin qaydalarına riayət etmək, həm də cəbhədə döyüşən əsgərlərimizin sağlamlığı üçün vacibdir. Ordumuza dəstək vermək istəyən hər bir vətəndaş ilk növbədə əsgər və zabitlərimizin sağlamlığı haqqında düşünməli, özünü və yaxınlarını xəstəlikdən qorumaqla haqq işimizə layiqli töhfəsini verməlidir.

Unutmamalıyıq ki, virus hər yerdədir və yox olmayıb. Atdığımız hər bir addımda məsuliyyətli davranaraq özümüzü, doğmalarımızı, xalqımızı qorumalıyıq. Hamı xüsusi karantin rejiminin qaydalarına riayət etməli, maska taxmalı, şəxsi gigiyenasını gözləməlidir.

Rəşadətli ordumuz, polad iradəli oğullarımız əzmlə bizi birinci düşmənimiz ermənilərdən qoruyur, bütün təxribatlarının qarşısını alıb cəza tədbirləri görərək geri otuzdurur. Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə qalib ordumuz ana yurdumuz Qarabağda üçrəngli bayrağımızı dalğalandırır.

Biz də vətəndaş həmrəyliyi göstərərək, daha diqqətli və sərvaxt davranaraq, düşmənlərə qarşı səfərbər olmalı, birlik nümayiş etdirib hər iki qəddar düşmənin fürsətini kəsməliyik...

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

## Azərbaycanda koronavirus infeksiyasına 803 yoluxma faktı qeydə alınıb, daha 212 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına 803 yeni yoluxma faktı qeydə alınıb, daha 212 nəfər sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 48 min 221 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 40 min 831 nəfər müalicə olunaraq sağalıb, 656 nəfər vəfat edib. Aktiv xəstə sayı 6734 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 270 min 144 test aparılıb. Dünənki test sayı isə 9951-dir.




## Baş Prokurorluq Ermənistanın təxribatları nəticəsində dinc əhaliyə qarşı törədilmiş cinayətlərin son statistikasını açıqlayıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 23-ü saat 17:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 4-də, 11-də, 17-də raket və ağır artilleriya hücumları nəticəsində Gəncə şəhərində 25 nəfər həlak olub, 139 nəfər yaralanıb. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Goranboy rayonunda 7 nəfər həlak olub, 10 nəfər yaralanıb.

Sentyabrın 27-də saat 18:00 radələrində Naftalan şəhərinin Qaşaltı-Qaraqoyunlu kənd sakini Qurbanov Elbrus İsa oğlunun evinə top mərmisinin düşməsi nəticəsində bir ailənin beş üzvü həlak olub.

Eləcə də Tərtər rayonunda 16 nəfər həlak olub və 50 nəfər yaralanıb. Yaralanmış şəxslərdən biri KİV nümayəndəsidir.

Bərdə rayonunda 2 nəfər həlak olub, 12 nəfər xəsarət alıb. Beyləqan rayonunda 2 nəfər həlak olub, 2 nəfər yaralanıb. Ağcabədi rayonunda 1 nəfər həlak olub, 19 nəfər xəsarət alıb. Füzuli rayonunda 3 nəfər həlak olub, 17 nəfər yaralanıb. Ağdam rayonunda isə 7 nəfər həlak olub, 40 nəfər xəsarət alıb. Yaralanmış şəxslərdən biri KİV təmsilçisidir.

Bundan başqa, Mingəçevir şəhərində 5, Daşkəsən, Cəbrayıl, Xocalı və Qəbələ rayonlarının hər biri üzrə 1 nəfər yaralanıb. Ümumilikdə, sentyabrın 27-dən oktyabrın 23-dək Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 63 nəfər həlak olub, 298 nəfər isə xəsarət alıb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir





## 14 tank, 5 PDM, 8 minaatan, 5 hərbi təyinatlı avtomobil...

### Bir gün ərzində Ordumuz düşmənin onlarca hərbi texnikasını dəqiq atəşlə məhv edib və qənimət götürüb

*Əvvəli 1-ci səh.*

Düşmənin 155-ci artilleriya alayına, 5-ci dağatıcı alaya və 543-cü alaya vurulan artilleriya zərbələrimiz nəticəsində komandir heyəti daxil olmaqla, çoxlu sayda canlı qüvvə məhv edilib, yaralanıb və itkin düşüb. Düşmənin yeraltı sığınacaqları dağıdılıb. Yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçıb, döyüşə girməkdən imtina edib. Əlavə yolların bağlı olması və nəqliyyat vasitələrinin çatışmazlığı səbəbindən düşmən yaralıların təxliyəsində ciddi çətinliklərlə üzləşib.

Hadrutdan şimaldakı müdafiə zolağında və Ağdərədəki 5-ci dağatıcı alayın müdafiə sahəsindəki hərbçilərə qohumları və tanışları telefonla zəng edərək onlara silahı yerə qoyub geri çəkilmələri barədə çağırış edir. Bölmələrdə ərzaq, yanacaq və döyüş sursatlarının çatışmadığı barədə də məlumat verilir.

Oktyabrın 23-ü gün ərzində cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub. Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulub, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb, vacib ərazi və yüksəkliklər azad edilib.

#### Erməni əsgəri silahını, texnikasını atıb qaçır, "erməni mifləri" dağılır

Dünən cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlər nəticəsində Ermənistan silahlı qüvvələrinə məxsus 3 pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilib. Digər 2 PUA isə xüsusi texniki vasitələrlə yerə endirilib.

Həmçinin düşmənin xeyli sayda hərbi texnikası, silah-sursatı məhv edilib, 14 tank, 5 PDM, 8 minaatan, 6 qumbaraatan, 5 hərbi təyinatlı avtomobil qənimət kimi götürülüb.

Ümumiyyətlə, indiyədək davam edən döyüşlərdə düşmənin 241 tankı, 79 PDM-i, 70 "Qrad" qurğusu, 53 tank əleyhinə vasitə, 17 özüyeriyən artilleriya qurğusu, 198 topu, 58 minaatanı, 2 "Uraqan", 2 "YARS", 1 TOS, 4 "S-300" zenit-raket kompleksi, 3 TOR zenit-raket kompleksi, 40-a yaxın OSA zenit-raket kompleksi, 5 KUB və KRUQ zenit-raket kompleksi, 10 pilotsuz uçuş aparatı, 2 əməliyyat-taktiki raket kompleksi - "Elbrus", 1 ballistik raket, 1 "Toçka-U" raketi, 8 radioelektron mübarizə vasitəsi, 203 yük avtomobili məhv edilib. 53 tank, 29 PDM, 20 minaatan, 31 qumbaraatan, 107 yük avtomaşını hərbi qənimət kimi götürülüb.

Cəbhədə güc üstünlüyü aşkar şəkildə Azərbaycanın tərəfindədir. Haqq yolunda vuruşan Azərbaycan Ordusu tam üstünlüyə malikdir. Ermənistan ordusu hələ nə qədər gec deyil işğal edilmiş torpaqları azad etdiyinə dair bəyanat verməlidir. Əks təqdirdə Ali Baş Komandanımızın söylədiyi kimi, düşmənin olan-qalan texnikaları da məhv ediləcək.

Azərbaycan Ordusunun qarşısında diz çökən erməni ordusu artıq məğlubiyyətlə barışmalıdır. Hər gün Azərbaycan bayrağı işğaldan azad olunmuş yeni yaşayış məntəqələrində ucaldılır. "Erməni mifləri" dağılır və yalanları ifşa olunur.

27 gündür davam edən haqq savaşımız Azərbaycan Ordusunun qüdrətini bir daha nümayiş etdirir. Nəinki erməni əsgəri, hətta xarici ölkələrdən gətirdikləri muzdlu terrorçular da yüksək döyüş ruhlu Azərbaycan əsgərinin qarşısında duruş gətirə bilmir. Ordumuz sözdə yox, əməldə də regionda ən güclü olduğunu nümayiş etdirir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Xalqına qələbə sevinci yaşadan Prezident



**Mənfur qonşularımızın 27 sentyabr 2020-ci il tarixində törətdiyi növbəti təxribatdan sonra Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun əks-həmlə əməliyyatına başlaması xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Biz indi hər an yeni zəfər müjdələri gözləyirik.**

Cənab Prezidentin işğaldan azad olunmuş yaşayış məntəqələri haqqında verdiyi məlumatları sevinc göz yaşları ilə dinləyirik və heç vaxt yaşamadığımız hissləri keçiririk. Bu hissləri bizə yaşatdığına görə bütün xalqımız Ali Baş Komandanına sonsuz minnətdardı.

Ulu Öndərimiz Heydər Əliyev 90-cı illərin əvvəllərində yaranmış son dərəcə mürəkkəb şəraitdə müstəqilliyimizi və dövlətçiliyimizi xilas etdi. Qısa müddətdə vəziyyəti stabilləşdirdi, sivil, demokratik bir dövlət qurdu. İqtisadiyyatımızın inkişafı üçün təməl prinsiplərini yaratdı. O cümlədən çətinliklərə baxmayaraq, dünyanın aparıcı şirkətləri ilə neft kontraklarının imzalanmasına nail oldu. Dövlətçilik ənənələrini yaratdı. Müasir Azərbaycan dövləti Ulu Öndərimizin şah əsəridir. Onun ən böyük xidmətlərindən biri də öz siyasi varisini, indi dünya siyasətçiləri tərəfindən böyük dövlət adamı kimi qəbul olunan İlham Əliyevi yetirməsidir.

İlham Əliyev hakimiyyətdə olduğu müddətdə ölkəmiz üçün ağlasığmaz dərəcədə böyük işlər görüb. Onları saymaqla qurtarmaz. Prezidentimiz hakimiyyətə gəldiyi ilk gündən ümummilli problemimiz olan Qarabağ məsələsi ilə hər gün ardıcıllıqla məşğul olmağa başladı. İştirak etdiyi bütün beynəlxalq tədbirlərdə, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrdə bu problemin siyasi, tarixi və etnik aspektləri barədə dünya ictimaiyyətinə peşəkarlıqla məlumat vermiş, Ermənistan dövlətinin işğalçılıq siyasətini ifşa etmişdir. Bununla bərabər dövlətimizin bütün imkanlarından istifadə edərək ordu quruculuğu işi ilə daim məşğul olmuşdu. Bu gün müxtəlif ekspertlərin fikrincə, Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü ordudur və dünyanın 50 ən güclü ordularından biridir.

Ordumuz XXI əsrin ordusudur, ən müasir silahlarla təmin olunmuşdur və hərbi əməliyyatlar müasir hərb elminə uyğun aparılır. Ali Baş Komandanımız əsl sərkərdə kimi bütün bu işlərə uğurla rəhbərlik edir və ordumuzu qələbədən-qələbəyə aparır.

Bu gün bütün xalqımız bir yumruq kimi birləşib, dövlətimizin yanında, Prezidentimizin və ordumuzun arxasındadır. Hamı vuruşmaq, Vətən müharibəsinə öz töhfəsini vermək istəyir. Övladları şəhid olan valideynlər "Vətən sağ olsun", deyirlər. Belə milləti heç bir mənfur düşmən məğlub edə bilməz! Qələbə bizimlədir!

Sirr deyil ki, zaman-zaman Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələri tərəfindən işğal olunmuş torpaqlarımızın hərbi yolla azad olunması fikri səsləndirilmişdir. Lakin cənab Prezident müharibədə itkilərin olacağını nəzərə alaraq son ana qədər məsələnin sülh yolu ilə həllinə çalışdı. Lakin erməni həyasızlığının sonu olmadığından törətdikləri təxribatlara adekvat olaraq ordumuz əks-hucuma keçərək işğal olunmuş torpaqların azad olunmasına başladı.

Ordumuz rəşadətlə vuruşur, düşmənə ağır zərbələr vurur. Hər iki tərəfdən itkilər var. Düşmənin itkiləri isə dəfələrlə çoxdur! Bütün bunların məsuliyyəti Ermənistanın təcavüzkar hakimiyyətinin üzərinə düşür. Bizim işimiz haqq işidir, ordumuz Vətən müharibəsi aparır.

Hər gün yeni şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz işğaldan azad olunur. Anadan olduğum və gəncliyimi keçirdiyim Cəbrayıl rayonunun Əmirvarlı kəndi də işğaldan azad olunmuşdur! Bu sevinci bizə bəxş etdiyinə görə cənab Prezidentə ailəmiz və rayonumuzun sakinləri adından dərin təşəkkürümü bildirirəm. Dövlətçiliyə bağlı olan cəbrayıllılar həmişə olduğu kimi, bu gün də əziz Prezidentimizin arxasındadırlar.

Azərbaycan xalqı Ali Baş Komandanına güvənir və əmindir ki, işğal olunmuş bütün torpaqlar azad olunacaq. Qələbəmiz çox da uzaqda deyil, bayrağımız yaxın günlərdə Şuşada və Xankəndidə dalğalanacaqdır!

Allah Prezidentimizi və Ordumuzu qorusun!

***Novruz QULİYEV,***
***AMEA-nın müxbir üzvü***

## 3 şəhər, 3 qəsəbə, 149 kənd...

### İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusunun işğaldan azad etdiyi yaşayış məntəqələrinin sayı hər gün artır

*Əvvəli 1-ci səh.*

#### Azad olunmuş yaşayış məntəqələri 6 rayonu əhatə edir

Sentyabrın 27-dən əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu 155 yaşayış məntəqəsini azad edib. Onların arasında Füzuli, Cəbrayıl, Zəngilan şəhərləri, Hadrut, Mincivan və Ağbənd qəsəbələri var. 149 kənd isə Füzuli, Cəbrayıl, Zəngilan, Xocavənd, Tərtər və Qubadlı rayonlarını əhatə edir.

Oktyabrın 22-də Trend agentliyinə müsahibə verən Birinci vitse-prezident Mehriban Əliyeva bir sıra şəhərlər və yaşayış məntəqələrimizin işğaldan azad edilməsi barədə deyib: *"Bütün xalqımızı bu əlamətdar hadisələr münasibətilə təbrik edirəm. Demək olar ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Bizim əsgərlər və zabitlər döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar. Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik. Bu, sadəcə, hərbi uğur deyil. Bu, tarixi ədalətin bərpasıdır, çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır. Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini!"*

#### Kəndlərin tarixi adları bərpa edilir

Ermənistan torpaqlarımızı işğal etməklə, xalqımıza qarşı soyqırımı törətməklə yanaşı, yerli toponimləri, yer adlarını da dəyişdirərək cinayətə yol verib, tarixi Azərbaycan ərazilərinin erməniləşdirilməsinə cəhd edib. Hazırda Azərbaycan Ordusunun torpaqlarımızı azad etməsi ilə haqq-ədalət də öz yerini tapır, tarixi adlar bərpa olunur.

Tərtər rayonunun işğal altında olan Madagiz kəndi oktyabrın 3-də azad edilib. Bu barədə özünün "Twitter" səhifəsində məlumat verən Prezident İlham Əliyev elə həmin gün kəndin adının dəyişdirərək Suqovuşan adlandırdı. Daha sonra Milli Məclisin plenar iclasında bununla bağlı layihə təsdiq olundu.

Oktyabrın 20-də isə xalqa müraciəti zamanı işğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını açıqlayan Prezident İlham Əliyev Xocavəndin Vəng kəndinin adını dəyişərək Çinarlı adlandırdı. Artıq Milli Məclisin Regional məsələlər komitəsinin iclasında "Azərbaycan Respublikasının Xocavənd rayonunun Vəng kəndinin Çinarlı kəndi adlandırılması haqqında qanun layihəsi"nə baxılıb. Parlamentin oktyabrın 27-də keçiriləcək növbəti iclasında bu layihə gündəliyin birinci məsələsidir.




Azad edilmiş torpaqlarımızdakı yaşayış məntəqələrinin öz tarixi adlarının qaytarılması mühüm siyasi, hüquqi və mənəvi əhəmiyyət daşıyır. Yer adlarımıza qarşı törədilən erməni saxtakarlığı aradan qaldırılır.

Başqa bir mühüm məsələ işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasıdır. Cocuq Mərcanlı kəndinin nümunəsi göstərir ki, bu sahədə kifayət qədər təcrübə var. Artıq Tərtər rayonunun yenicə azad olunan Suqovuşan və Talış kəndlərinə gedən 29 kilometrlik avtomobil yollarının bərpasına başlanılıb.

#### Xudafərin körpüsündə Azərbaycan bayrağı dalğalanır

Azərbaycan Ordusunun işğaldan azad etdiyi ünvanlardan biri də Araz çayı üzərindəki qədim Xudafərin körpüsüdür. Oktyabrın 18-də, 27 ildən sonra körpü üzərində yenidən üçrəngli bayrağımız ucaldıldı. Azərbaycan memarlıq məktəbi üslubunda inşa olunmuş, XI-XII əsrlərə aid bu körpünün azad edilməsinin xalqımız üçün xüsusilə mühüm əhəmiyyəti var. Çünki bu körpü bizim tariximizin, zəngin dövlətçiliyimizin tərənnümçüsüdür. Bu körpü Azərbaycan xalqının milli kimliyinin təsdiqidir. Körpünün işğaldan oktyabrın 18-də - Azərbaycanın Dövlət Müstəqilliyi Günü azad edilməsinin isə xüsusilə rəmzi mənası var. Körpünün məhz həmin gün azad edilməsi müstəqillik tariximizi daha da şərəfləndirdi.

İşğaldan azad edilən yaşayış məntəqələrinin sırasına hər gün yeniləri əvəz olunur. Ordumuzun qarşısında duruş gətirə bilməyən düşmən artıq son nəfəsini verir və Böyük Qələbəyə sayılı günlər qalır. İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusu bütün torpaqlarımızı tam azad edəcək və bizim üçün milli qürur məsələsi olan Şuşada, Xankəndidə Azərbaycan bayrağı dalğalanmağa başlayacaq. Hər bir azərbaycanlı səbirsizliklə həmin tarixi anları gözləyir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Ermənistanda hərbi xunta hakimiyyət çevrilişinə hazırlaşır

### Qarabağdakı məğlubiyyət Paşinyanın mövqeyini sarsıdıb

*Əvvəli 1-ci səh.*

Əli silah tuta bilməyən insanları ölümə göndərirsiz! Özünüz gedin savaşın. Siz bizləri düşünmürsüz, ölümə göndərirsiz!"

Paşinyan "Facebook" hesabında həm hazırkı mərhələdə, həm də uzun müddət ərzində Qarabağ məsələsinin diplomatik yolla həllinin mümkün olmadığını deyib. Bununla o, Ermənistanın işğalçı siyasətini davam etdirdiyini və bu ölkənin hazırkı rəhbərliyinin münaqişənin danışıqlar yolu ilə həllində maraqlı olmadığını açıq şəkildə etiraf etmiş olub. Halbuki, Azərbaycan tərəfi xoş niyyət və konstruktivlik nümayiş etdirərək humanitar atəşkəsə iki dəfə razılıq verib və münaqişənin BMT-nin qətnamələri əsasında danışıqlar yolu ilə həllini dəstəklədiyini bəyan edib. Amma hər hansı beynəlxalq təzyiq hiss etməyən və Azərbaycana qarşı təcavüz siyasəti sayəsində bu günədək törətdiyi çoxsaylı müxtəlif cinayət əməllərinə görə hüquqi məsuliyyətə cəlb edilməyən Ermənistan rəhbərliyi verdiyi məsuliyyətsiz bəyanatları və törətdiyi əməlləri ilə öz xalqını uçuruma sürükləyir.

#### Sabiqlər Paşinyana qarşı birləşir

Ermənistanda vaxtilə hakimiyyətdə olmuş hərbi xunta da Paşinyana qarşı fəallaşıb. Onlar cəbhədəki məğlubiyyətlər səbəbindən baş nazirin ölkə daxilində mövqelərinin zəifləməsindən istifadə etməyə çalışırlar. Ermənistandakı siyasi partiyalar yaranacaq hakimiyyət böhranını etiraf edirlər. Bu səbəbdən də siyasi partiyalar arasında qızğın müzakirələr gedir. Hələlik erməni siyasətçiləri Qarabağ məsələsini sözdə müzakirə edirlər, çünki əsl niyyətləri ölkədə baş verəcək siyasi böhrandan yararlanmaqdır. Məsələn, bunun nümunəsi kimi Ermənistanın keçmiş prezidentləri Levon Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarkisyanın bir masa ətrafında əyləşməsini göstərmək olar. N.Paşinyanın əsas dəstəkçisi isə sabiq prezident Levon Ter-Petrosyandır. O, bu günlərdə 16 partiyanın birləşərək Paşinyanın səlahiyyətlərinin müəyyən hissəsini əlindən almaq cəhdini pisləyib. Qeyd edək ki, Ermənistanda parlamentdən kənarda qalan partiyaların əksəriyyəti Serj Sarkisyan və Robert Koçaryan ətrafında birləşir.



Ermənistan mediası onu da yazır ki, Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan separatçı qurumun sabiq rəhbərləri Bako Saakyan, Arkadi Qukasyan və Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan Qarabağdakı separatçı rejimin ilk rəhbəri və Ermənistanın ikinci prezidenti R.Koçaryanla görüşüblər. "Qraparak" qəzetinin məlumatına görə, görüşdən əvvəl B.Saakyan və A.Qukasyan N.Paşinyan və daha sonra Serj Sarkisyanla görüşüblər. Koçaryanın ofisinin rəhbəri Viktor Soqomonyan məlumatı təsdiqləyib.

#### İşğalçı dövlət sonu görünməyən siyasi böhranın astanasındadır

Görüşlərdə Qarabağdakı vəziyyətin müzakirə olunduğu iddia edilsə də, sirr deyil ki, əsas müzakirə mövzusu siyasi hakimiyyətin ələ keçirilməsidir. Ermənistan mediası bununla bağlı yazır ki, R.Koçaryan yaranan vəziyyətdən istifadə edib Paşinyanı devirməyi düşünür. Bu səbəbdən Ermənistan daxilində yaxın tezlikdə vəziyyətin qarışması qaçılmazdır.

"İşıqlı Ermənistan" partiyasının sədri Edmon Marukyan da bildirib ki, yaranacaq hakimiyyət böhranı səbəbindən siyasi qüvvələr arasında müzakirələr başlayıb. Onun sözlərinə görə, ilk dəfədir ki, Ermənistanın keçmiş prezidentləri bir araya gəlir və aydın məsələdir ki, onlar həm də bir-birinə düşmən sayılırlar.

Nəzərə almaq lazımdır ki, Ermənistanda sosial-iqtisadi vəziyyət də gərginləşir. Müharibə həm çoxlu sayda canlı qüvvə, həm də iqtisadi resurslar tələb edir. Digər tərəfdən son günlər Ermənistanda koronavirus infeksiyasına yoluxma halları sürətlə artıb. Virusun ikinci dalğası Ermənistanın səhiyyə və sosial sisteminə çox böyük təsir göstərir.

Belə vəziyyətdə hərbi və iqtisadi resursları tükənən ölkənin durumunu təsəvvür etmək çətin deyil. Əhali, eləcə də rəqibləri Paşinyanın yürütdüyü siyasətdən narazıdır. Onlar yuxarıda qeyd edildiyi kimi son vaxtlar fəallaşıblar və baş nazirin devrilməsi istiqamətində planlar hazırlanır. Hərbi əməliyyatların başlamasından öncə Ermənistanın ikinci əsas müxalifət partiyası "Çiçəklənən Ermənistan"ın lideri Qaqik Tsarukyanın həbs edilməsi da göstərir ki, Paşinyan çox ehtiyat edir. O, xüsusilə Rusiya amilinin güclənməsindən ehtiyatlanır və bunun qarşısını almağa çalışır. Amma resursları çox da böyük olmadığından istədiyinə nail ola bilmir.

Görünən odur ki, Ermənistanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Gözlənilir ki, cəbhədəki çoxsaylı insan itkiləri ilə əlaqədar vətəndaşlar tezliklə küçələrə axışacaq. Bununla da Ermənistan sonu görünməyən daxili siyasi böhrana qədəm qoyacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# Müslüm ucalığı

**Musiqi mədəniyyətimizdə elə şəxsiyyətlər var ki, onların həyatı əbədiləşərək tarixin bir parçasına çevrilir. Bu insanların ömrü və yaradıcılıq yolları milyonlarla dinləyicinin qəlbinə yol taparaq hər kəsdə yalnız qürur, məhəbbət doğurur. Və onlar özündə böyük bir tarix yaşadır. Belələrinin sənət möcüzəsi həm də xalqa xidmətin simvoluna çevrilir.**

Belə şəxsiyyətlərdən biri də korifey sənətkar, dünya şöhrətli müğənni, bəstəkar, pianoçu, SSRİ Xalq artisti Müslüm Maqomayevdir. Unudulmaz ifaçını tarixin zaman pəncərəsindən dəyərləndirdikdə qarşımızda səsinin möcüzəsi ilə Azərbaycan musiqi mədəniyyəti tarixində bütöv bir dövrü formalaşdıran heyrətamiz, qüdrətli sənətkar canlanır. M.Maqomayev ilk növbədə Vətənini böyük məhəbbətlə sevən, harada olmasına baxmayaraq, ona bağlı olan, doğma yurdunun əsl vətəndaşı idi. Bu hiss M.Maqomayevin tək yaradıcılığının deyil, onun yaşam amalının əsas mahiyyətini təşkil edirdi. Müğənninin dünyaya baxışının bünövrəsində də məhz vətən və vətəndaşlıq kimi ali keyfiyyətlər dayanırdı. Bu isə böyük bir zənginlik idi.

M.Maqomayevin yaradıcılığını vətənpərvər ruhlu mahnılarsız təsəvvür etmək mümkün deyil. Belə ki, ifaçının müraciət etdiyi və müəllifi olduğu əsərlər arasında yurduna, torpağına olan məhəbbəti əks etdirən, insanları sülhə səsləyən, yüksək humanizmi təbliğ edən, müharibə ilə bağlı, eləcə də dünyanı sevməyə, onu qorumağa çağıran yetəri qədər mahnıları vardır. Həmin mahnıları yaxından incələdikdə M.Maqomayevin həm də bir dünya vətəndaşı olmasını müəyyən edirik. Sirr deyil, onun adı geniş bir coğrafiyaya yayılmış, milyonların kumirinə çevrilmişdir.

Vətənpərvərlik sanki ifaçının yaradıcılıq simasının digər bir vacib tərəfini özündə əks etdirirdi. Ölməz sənətkarın tərcümeyi-halından da onun dəfələrlə Avropada keçirilən bir çox təşkilatların, eləcə də 1980-ci ildə "İncəsənət xadimləri-sülh uğrunda" cəmiyyətinin konsertində iştirak etməsi məlumdur. O, Berlin şəhərində "Dünya-məhəbbətin vətəni" adlı mahnısını müxtəlif dillərdə səsləndirmiş və bununla sanki bütün insanları sülhə, bəşəriyyəti şər qüvvələrdən qorumağa çağırmışdır. Bu baxımdan mahnı yaradıcılığı görkəmli sənətkar üçün bir tribuna rolunu oynayırdı, desək yanılmarıq. Onun heyrətamiz bariton səsi böyük ustadın içindəki ən sirli arzuları, heyranı olduğu insanların qəlbinin çırpıntılarını ifadə etməyə qadir idi. İnsanlar bu səsə, bu ifaya valeh idilər...

Yaradıcılığı ilə əlaqədar doğma Bakısından kənarda yaşasa da, o, Vətəninə olan sevgisinə daim sadiq qalmışdır. Musiqiçi əsərlərini ilk dəfə Bakıda təşkil olunan konsertlərində təqdim etmişdir. Bu, həm də ifaçının dinləyicisinə olan sevgisinin bariz nümunəsidir. Sənətkarın son mahnısı da Bakı ilə bağlı idi və görkəmli rus şairi S.Yeseninin sözlərinə yazılmışdır. Burada doğma şəhərini yenidən görmək arzusu əks olunmuşdur.

M.Maqomayevin patriotik lirikasının zirvəsini Xalq şairi, Dövlət mükafatları laureatı Nəbi Xəzrinin sözlərinə yazdığı "Baharlı yurdum, Azərbaycan" mahnısı təşkil edirdi. Onun səsi, ifası bənzərsizliyi ilə seçilirdi, mahnını yaradan xalqın bir parçasına çerilirdi. Yaradıcılıq diapazonu geniş idi. Müslüm çalır, oxuyur, bəstələyir, müxtəlif çalarlı obrazlar yaradırdı... Və nəhayət, ifa etdiyi əsərlərə öz möhürünü vururdu.

Azərbaycan eşqi ilə dünyanı fəth edən sənətkarın ölümündən sonra məhəbbəti dillər əzbəri olan mahnılarında yaşayır. Belə ki, musiqi mədəniyyətimizdə "Baharlı yurdum, Azərbaycan" mahnısı kimi ali patriotik hissləri yüksək formada tərənnüm edən ikinci bir əsər yoxdur. Mahnı respublikamızda qeyri-rəsmi himnə çevrilmişdir və dinləyicilər tərəfindən böyük rəğbətlə qarşılanır. "Baharlı yurdum, Azərbaycan" mahnısı azərbaycançılığı, milli və mənəvi dəyərləri, yüksək vətəndaşlıq hissini ifadə edən ən gözəl himndir. Bu əsər dinləyəcilərə "Azərbaycan" adı ilə məlumdur. Mahnı qəlbi daim Vətəni üçün döyünən böyük vətəndaşı bizlərə çatdırmış olur. Əsər 1975-ci ildə bəstələnmiş və M.Maqomayev ilk dəfə olaraq onu Bakıda verdiyi konsertində səsləndirmişdir.

Müslüm Maqomayevin müəllifi olduğu "Söhbət açım öz diyarımdan" adlı məqaləsində ifaçının Azərbaycana olan bağlılığı, Vətən eşqi səmimiliyi ilə ifadə olunmuşdur. Həmin məqalədən kiçik bir hissəni təqdim edək: "İnsana çox vaxt səadət yolçusu da deyirlər. Doğulan gündən qulaqların səs eşidir: səni xoşbəxt olasan. Bəs xoşbəxtlik nədir? Onu uzaqdamı axtarmaq lazımdır, yoxsa yaxındamı? Məncə, səadəti evin içində də tapmaq olar. Düz çörəyi ilə böyüdüyüm xalqın azca da olsa etimadını qazana bilmişəmsə, deməli, xoşbəxtəm. Ona görə xoşbəxtəm ki, doğma Azərbaycanım məni boya-başa çatdırdı, geniş yola çıxartdı. Doğma Bakıdan başlayan bu səadət yolu sərhədləri aşmış, çaylar, dənizlər, okeanlar üzərindən körpü salmış, ölkədən-ölkəyə, qitədən-qitəyə uzanmış, dünyanı dolanaraq yenə də anam Azərbaycanda qərar tutmuşdur... Harda oluramsa-olum, səsim harada ucalırsa-ucalsın, dinləyicilərimin alqışlarını, gül-çiçəklərini daim qəlbimə basacaq və ən şirin bir mahnı kimi deyəcəyəm: -Bunları mənə sən bağışladın, Ana yurdum!"

Bəzi insanlar bu dünyaya hər hansı bir missiyanı yerinə yetirmək üçün göndərilirlər. Onları bəzən Tanrının elçisi də adlandırırlar. Sənətkarın musiqi dolu ömrü sanki bu müqəddəs amalı yerinə yetirmək üçün göndərilmişdi.

Müslüm Maqomayev insanların qəlbində sənəti, istedadı, dünyaya olan məhəbbəti, mükəmməl şəxsiyyəti ilə işıq saçdı və ucaldı.

***İlham NƏZƏROV,***
***Azərbaycan Respublikasının Əməkdar artisti***

# Ömrü örnək olan alim

**Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun baş elmi işçisi, iqtisad elmləri doktoru, professor, RAE-nin Əməkdar elm və texnika xadimi, müxbir üzvü Cəbiyev Rauf Mirzə oğlunun 25 oktyabrda 85 yaşı tamam olur.**



Rauf Cəbiyev Bakı şəhərində 25 oktyabr 1935-ci ildə ziyalı ailəsində dünyaya göz açmışdır. Orta məktəbi bitirəndən sonra S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (hazırda Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə daxil olmuşdur. Universiteti uğurla başa vurandan sonra iqtisadiyyat elminə və dünyasına olan maraq və sevgisini reallaşdırmaq üçün iqtisadiyyat sahəsində təhsil almışdır və D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (hazırda İqtisad Universiteti) Sənaye iqtisadiyyatı fakültəsinə daxil olub və 1971-ci ildə buradakı təhsilini uğurla başa vuraraq iqtisadçı diplomunu almışdır. Universiteti bitirdikdən sonra Azərbaycan Nazirlər Kabinetinin Qiymət Komitəsində baş müfəttiş-nəzarətçi, şöbə müdirinin müavini və şöbə müdiri vəzifələrində çalışmışdır.

Az bir zaman içərisində Rauf Cəbiyev iqtisadiyyat sahəsində bacarıqlı bir tədqiqatçı olduğunu ortaya qoymuş və 1974-cü ildə "Yeni iqtisadi şəraitində mənfəət və onun stimullaşdırıcı rolu" mövzusunda uğurlu elmi müdafiəsindən sonra iqtisad elmləri namizədi alimlik dərəcəsini almışdır. Bu sahədə ilk addımları və uğurları Rauf müəllimi daha gərgin və səmərəli işləməyə, fəaliyyətini genişləndirməyə stimul verməyə başlamışdır. Başladığı elmi fəaliyyətini davam etdirmək onun həyat amalına çevrilmişdir.

1977-ci ildən 1982-ci ilədək Azərbaycan Dövlət Plan Komitəsinin nəzdindəki Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda sektor müdiri vəzifəsində çalışmışdır.

1982-ci ildən 1985-ci ilədək Azərbaycan Dövlət Plan Komitəsində yeni planlaşdırma metodlarının tətbiqi və iqtisadi təşviqat şöbəsinin müdiri vəzifəsində işləmişdir.

1985-ci ildən 1990-cı ilədək Azərbaycan Dövlət Plan Komitəsinin nəzdindəki Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda sektor müdiri vəzifəsində çalışmışdır.

1991-ci ildə "Azərbaycan SSR sənayəsində təsərrüfat əlaqələrinin inkişafı və təkmilləşdirilməsi" mövzusunda doktorluq dissertasiyasını yazmış və iqtisad elmləri doktoru elmi dərəcəsini almışdır. 1993-cü ildə Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının qərarı ilə professor elmi adını qazanmışdır.

1990-cı ildən 1997-ci ilədək Azərbaycan Dövlət İqtisadiyyat İnstitutunun Sənaye iqtisadiyyatı kafedrasında dosent, kafedra müdiri vəzifəsində çalışmışdır.

1997-ci ildən 2007-ci ilədək Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində olan İqtisadi İslahatlar Mərkəzində şöbə müdiri vəzifəsində işləmişdir.

2007-ci ildən bu günə kimi Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun baş elmi işçisi vəzifəsində çalışır.

Xatırladaq ki, SSRİ-nin dağılmasından əvvəl Rauf Cəbiyevin məqalələri ittifaq və beynəlxalq jurnalların səhifələrində dərc edilirdi. Onlardan "Вопросы экономики", "Плановое хозяйство", "Машиностроитель", "Социалистический труд", "Хозяйство и право", "Вопросы ценообразования", "Финансы СССР", "Деньги и кредит", "Советская торговля" və başqaları. İki kitab "Профактиву об эффективности производства" və "Перестройка в республиканской промышленности" 1978-ci və 1989-cu illərdə "Знание" və "Profizdat" nəşriyyatları tərəfindən Moskvada nəşr olunmuşdur. "Социально-экономическое развитие Азербайджанской Республики за годы независимости" monoqrafiyasına Moskvadakı keçid dövrünün İqtisadiyyat İnstitutunun əməkdaşları tərəfindən rəy verilmiş və 2005-ci ildə çap edilmişdir.

SSRİ dağılandan sonra da R.Cəbiyevin aşağıdakı beynəlxalq jurnallarda məqaləri dərc edilmişdir:

"Вопросы экономики", 1991; "Экономика и жизнь", 1991; "Центральная Азия и Кавказ", 2002; "Общество и экономика", 2006, 2012, 2014, 2017, 2018; "Экономист", 2005; "Инновации", 2005, 2013, 2017, 2018; "Финансы", 2005; "Мировая экономика и международные отношения", 2012; "Белорусский экономический журнал", 2013; "Международная экономика", 2013; "Наука и инновации", 2014, 2018; "Проблемы современной экономики", 2009, 2018.

Professor Rauf Cəbiyev 20 monoqrafiya və bir neçə elmi kitabın müəllifdir, iqtisadiyyatın müxtəlif sahələrinə həsr olunmuş 400-dən çox elmi əsər nəşr etdirmiş, iqtisadçı-alimlər və tədqiqatçılar tərəfindən elmi mənbə kimi istifadə olunmaqdadır. Onun Azərbaycanda iqtisadi mexanizm və onun təkmilləşdirilməsi, bazar infrastrukturunun formalaşması və inkişafı, investisiyalar, dövlət mülkiyyətinin özəlləşdirilməsi və sahibkarlığın inkişafı, innovasiyalar haqqında MDB və digər xarici ölkələrdə çap olunmuş fundamental elmi əsərləri iqtisadiyyat elminin dəyərli nümunələrindən olmaqla, həm də Azərbaycanda iqtisadiyyat elminin inkişaf və uğurlarını ortaya qoyan nümunələrdir.

Professor Rauf Cəbiyev iqtisadiyyat sahəsində xidmətlərinə görə, habelə beynəlxalq layihələr üzrə keçirilən müsabiqələrdə dəfələrlə fəxri fərmanlar, pul mükafatı və qrantlar almışdır.

2003-cü ildə Dünya Bankının Azərbaycanda keçirilmiş "Yoxsulluğun azaldılması" müsabiqəsinə qatılan R.Cəbiyev birinci yeri tutmuş və mükafatlandırılmışdır.

2005-ci ildə Azərbaycan Neft Sənayesi Məlumat Mərkəzinin elan etdiyi "Neft və yoxsulluq" müsabiqəsində iştirak etmiş və üçüncü yeri tutmuş və mükafatlandırılmışdır.

2007-ci ildə professor R.Cəbiyev "Elm, texnologiya və innovasiyanın inkişafı" adlı İNTAS qrantını qazanmışdır. Rusiya Federasiyasının Azərbaycandakı Səfirliyinin 2007-ci ilin sonunda elan etdiyi "Rusiya-Azərbaycan münasibətləri: sabitlik və qarşılıqlı maraqlar" müsabiqəsində iştirak edən Rauf Cəbiyev ikinci yeri tutmuşdur (birinci yer verilmirdi) və mükafatlandırılmışdır.

Bundan sonra "Rusiya-Azərbaycan strateji tərəfdaşlar" mövzusunda jurnalistlərin ikinci müsabiqəsində fəal iştirakına görə Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfirinin Diplomuna və pul mükafatına layiq görülmüşdür.

2013-cü ildə ilin böyük iqtisadi Ensiklopediyasında və 2018-ci ildə də Azərbaycan Milli Ensiklopediyasında böyük alimin xarakteristikası verilmişdir.

Professorun "İnnovasiya sferasında Azərbaycanın dövlət siyasəti" adlı elmi əsəri 2015-ci ildə Almaniyanın Berlin şəhərində çapdan çıxmışdır və bu kitab istər elmi dairələrdə, istərsə də tədqiqatçılar arasında böyük marağa səbəb olmuş və əminliklə deyə bilərik ki, uzun illər də dəyərini itirməyəcəkdir.

2018-ci ildə beynəlxalq jurnallarda standartlaşdırma, sertifikatlaşdırma, keyfiyyət və yenilik problemlərinə dair çoxsaylı məqalələrin dərc olunması ilə əlaqədar olaraq professor R.Cəbiyev "Avropa keyfiyyəti" qızıl medalı ilə təltif edilmişdir.

Rauf Cəbiyevin rəhbərliyi və birbaşa iştirakı ilə qaçqınların Azərbaycan Respublikasında yerləşdirilməsi ilə əlaqədar beynəlxalq layihənin iqtisadi bloku tamamlanmışdır. Bundan əlavə, 2004-2008-ci illər üçün Azərbaycan Respublikasının regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının hazırlanmasında iştirak etmişdir.

Professor Rauf Cəbiyev həm ölkədə, həm də xaricdə müxtəlif illərdə keçirilən 40 beynəlxalq elmi və praktik konfranslarda iştirak və çıxış etmişdir.

Bu gün 85 yaşı tamam olan, 50 ildən çox iqtisadiyyat sahəsində səmərəli fəaliyyət göstərən bu fədakar insan ömrünün müdriklik yaşına çatsa da, yenə gənclik eşqi ilə, həvəsi ilə yazıb-yaradır. Onun işgüzarlığına və fəaliyyətinə bu gün də yalnız qibtə etmək olar. Professor Rauf Cəbiyev 85 illik yubileyi ərəfəsində innovasiya və rəqabətqabiliyyətlilik mövzusunda bir sıra məqalələr üzərində, habelə Azərbaycanın regionlarının innovasiya sahəsində reytinqlərinin müəyyənləşdirilməsi istiqamətində işləyir və gələcəkdə "Azərbaycan Respublikasının Milli İnnovasiya sisteminin reallıq və perspektivləri" monoqrafiyasını nəşr etməyi planlaşdırır.

Həmkarları, uzun illər dostluq etdiyi insanlar fəxrlə deyirlər ki, o, istedadlı alim, təcrübəli iqtisadçı, müdrik və gözəl insan, etibarlı dost və örnək ola biləcək ailə başçısıdır.

Bir insan və alim kimi böyük ürəyə sahib olan professor Rauf Cəbiyevin həyat yolu hələ bundan sonra da onu tanıyanlar üçün bir örnək olacaqdır. Səmərəli fəaliyyəti ilə gənclərimizə nümunə olan və bu gün 85 yaşı tamam olan dəyərli alimin həyat yolu bir daha sübut edir ki, ilahi iradəli insan istədiyi hədəfə çata bilər. Bu nəcib yolda professora yeni uğurlar, cansağlığı və uzun ömür arzu edirik.

***İradə QƏRİBOVA***

# İsrailin Azərbaycandakı səfiri Mingəçevirdəki elektrik stansiyalarında olub



**"Azərenerji" ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, oktyabrın 23-də İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Corc Dik Mingəçevir şəhərinə humanitar səfər edərək Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İES-də olub.**

Qeyd edək ki, oktyabr ayı ərzində dəfələrlə Mingəçevir şəhərinə, əlelxüsus enerji obyektlərinə erməni silahlı birləşmələri tərəfindən dəfələrlə ballestik raketlər atılıb. Həmin raketlərin əksəriyyəti Hərbi Hava Qüvvələri tərəfindən zərərsizləşdirilib və 2 ədəd raket hissəsi oktyabrın 4-də və 11-də "Azərbaycan" İES-in ərazisinə düşüb. Səfir Corc Dik əvvəlcə "Azərbaycan" İES-in ərazisində ucaldılan Ulu Öndər Heydər Əliyevin heykəlinin və Şəhidlər abidəsinin önünə gül dəstələri qoyub. Sonra səfir stansiyanın ərazisini gəzərək raket düşən yerlərlə tanış olub.

Səfər zamanı "Azərenerji" ASC-nin və stansiyaların mütəxəssisləri tərəfindən stansiyaların fəaliyyəti, aparılan yenidənqurma işləri və baş vermiş terror aktlarının təfsilatları barədə səfirə məlumat verilib.

Sonra səfir "Mingəçevir" Su Elektrik Stansiyasına gəlib və oradakı vəziyyətlə tanış olub.


## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu (DSMF) publik hüquqi şəxsi

### *açıq tenderə dəvət edir*

Fondun Aparatı və struktur bölmələrində təsərrüfat məqsədilə istifadə olunacaq yük avtomobilinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqavilənі yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 150.00 (yüz əlli) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/hesabı: AZ46CTRE00000000000007018504**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
3. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **17.11.2020-ci il saat 15:00** tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini **25.11.2020-ci il 15:00** tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **26.11.2020-ci il saat 15:00** tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən "Bir mənbədən satınalma" metodu tətbiq edilməklə generatorların satın alınması üzrə ümumi dəyəri ƏDV daxil 436 723,90 (dörd yüz otuz altı min yeddi yüz iyirmi üç manat, 90 qəpik) manat məbləğində "Net Elektrik" MMC ilə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

"Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi tərəfindən Tibbi inventarların satın alınması üçün keçirilmiş açıq tenderdə "Nur-SS" MMC qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***


# "Le Figaro": Paşinyanın vəziyyəti ümidsizdir

Fransanın "Le Figaro" nəşri hazırda Dağlıq Qarabağda həyata keçirilən hərbi əməliyyatlar barədə növbəti yazı dərc edib.

Məqalədə qeyd olunur ki, Ermənistanın baş naziri Nikol Paşinyan Dağlıq Qarabağ münaqişəsinin heç bir siyasi həllinin olmadığını deyərək, insanları könüllü olaraq cəbhəyə yollanmağa çağırıb.

Məqalədə həmçinin bildirilir ki, Paşinyan şəhər, qəsəbə və kəndlərin yerli rəhbərlərinə, vətəndaş təşkilatları, siyasi partiyaların, işgüzar dairələrin və könüllü birliklərin rəhbərlərinə müraciət edərək onları Azərbaycana qarşı döyüşməyə çağırıb. O, cəbhə xəttindəki vəziyyətin separatçılar üçün kifayət qədər ağır olduğunu da etiraf edib və hər kəsi birləşməyə çağırıb.

Yazıda Azərbaycanın 90-cı illərdə itirdiyi torpaqları geri qaytardığı qeyd olunur.

Sonda bildirilir ki, Paşinyanın bu çıxışı oktyabr ayında razılaşdırılmış iki humanitar atəşkəsin ardıcıl olaraq uğursuzluqla nəticələnməsi zəminində baş tutub.

Yazıda hər iki ölkənin xarici işlər nazirlərinin Moskva və bu gün baş tutmalı olan Vaşinqton görüşlərinə də toxunulub.

# Qarabağda ilk mobil rabitə!

**Böyük sevinc hissi ilə bildirmək istəyirik ki, "Azercell Telekom" MMC işğaldan azad olunmuş ərazilərdə ilk mobil infrastrukturun qurulmasına başlayıb və orada dördüncü nəsil LTE radio baza stansiyalarını quraşdırmaqdadır!**

"Azercell" şirkəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi sayəsində qəhrəman Ordumuzun bu zəfər yürüşünün möhtəşəm bir qələbə ilə başa çatacağına əmindir. Buna görə də operator ölkəmizin azad edilmiş bütün tarixi ərazilərini müasir mobil şəbəkə ilə əhatə etməyə, eləcə də tezliklə öz evlərinə qayıdacaq sakinlərini fasiləsiz rabitə və innovative xidmətlərlə təmin etməyə hazırdır.

Azərbaycanda bağlantısız heç bir nöqtə qalmayacaq!
Qarabağdan eşidilmək ümidilə #gəlirik!
Qarabağ Azərbaycandır!



# B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 17.06.2020-ci il tarixli 138 (8454) sayında dərc edilmiş LOT-1: “Katriclərin dolumu və təmiri xidməti”nin satın alınması prosedurunun qalibi “Caspian Supplies AZE” MMC müəyyən edilmişdir.

“Azərpoçt” MMC və “Caspian Supplies AZE” MMC arasında 21.10.2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

# Azərbaycan Dövlət Pedaqoji Kolleci Digər maşın və avadanlıqların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar **(+99412) 537-22-01** telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 23.10.2020-ci il saat 14:00-dan 27.10.2020-ci il saat 14:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, İnşaatçılar pr. 45.**
**Telefon: (+99412) 537-22-01**
**E-mail: a.ramiz@adpk.edu.az**

*Tender komissiyası*

# Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: -”Aztelekom” MMC-nin inzibati binasında və struktur bölmələri, o cümlədən kənd EATS-nin cari təmir-tikinti işlərinin satın alınması

**İştirak haqqı: 500 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını **“ASAN ödəniş” sistemi** vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BIK: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin Əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **16 noyabr 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **24 noyabr 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **25 noyabr 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

*Tender komissiyası*

# Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - “Aztelekom” MMC-nin və Gəncə telekommunikasiya idarəsinin inzibati binalarında istismarda olan liftlərə 18 ay müddətinə texniki xidmət işlərinin və istifadə olunması ehtimal olunan ehtiyat hissələrinin satın alınması.

**İştirak haqqı: 100 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını **“ASAN ödəniş” sistemi** vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BIK: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin Əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **16 noyabr 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **24 noyabr 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **25 noyabr 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

*Tender komissiyası*

# Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - Təmizlik işləri üçün təsərrüfat mallarının satın alınması

**İştirak haqqı: 200 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını **“ASAN ödəniş” sistemi** vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BIK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin Əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **16 noyabr 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **24 noyabr 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **25 noyabr 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 01 oktyabr 2020-ci il tarixli nömrəsində “Azərsu” ASC-nin daxili vəsaiti hesabına COVID-19 test analizlərinin aparılması xidmətinin elektron qaydada satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tələb olunan sənədlərin qəbulu 10 noyabr 2020-ci il saat 18:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 18 noyabr 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 19 noyabr 2020-ci il saat 18:00-a dəyişdirilmişdir.

İddiaçılar “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs - Hikmət Qasımov, (012) 431-47-67 / 2249, hikmat. qasimov@azersu.az) müraciət edə bilərlər.

*Tender komissiyası*

# “Azərişıq” ASC Şamaxı rayonunda 110/35/10 kV-luq Şamaxı yarımstansiya ilə yeni tikilmiş 35/ 10 kV-luq Yeni yarımstansiya arasında 35 kV-luq iki dövrəli ÖİN kabel xəttinin tikintisi işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

**LOT-1:** Şamaxı rayonunda 110/35/10 kV-luq Şamaxı yarımstansiya ilə yeni tikilmiş 35/10 kV-luq Yeni yarımstansiya arasında 35 kV-luq iki dövrəli ÖİN kabel xəttinin tikintisi işlərinin satın alınması (1-ci mərhələ) - 1000 manat

**LOT-2** Şamaxı rayonunda 110/35/10 kV-luq Şamaxı yarımstansiya ilə yeni tikilmiş 35/10 kV-luq Yeni yarımstansiya arasında 35 kV-luq iki dövrəli ÖİN kabel xəttinin tikintisi işlərinin satın alınması (2-ci mərhələ) - 1000 manat

**“Azərişıq” ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev, 130 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Namiq Heybətov, telefon: (012) 440-39-93 (daxili 92-19).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **04 dekabr 2020-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **14 dekabr 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **15 dekabr 2020-ci il saat 16:00-da** Mirzağa Əliyev küçəsi, 130 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadəyə əzizi

**AYDIN ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Sabunçu Rayon Polis İdarəsinin rəisi Eldar İlyasova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi

**EMİN ŞƏKİNSKİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7475
Sifariş 2452
Qiyməti 40 qəpik